ISPEC International Journal of Social Sciences & Humanities
E-ISSN: 2717-7262
Vol: 2, Issue: 1, 2018

# AZƏRBAYCANDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SOVET DÖVLƏTİ SİYASƏTİ KONTEKSTİNDƏ (1920-1940)

**İbrahimova Gulzar**
**Niğde Ömer Halisdemir Üniversiteti, İktisadi ve İdari Bilimler Fakültəsi,**
**Siyaset Bilimi ve Uluslararası İlişkiler bölümü,**
**Siyasi elmlər doktoru, professor**

***Xülasə***

Məqalədə sovetləşmənin ilk onilində Azərbaycanda milli-mənəvi dəyərlər sovet dövləti siyasəti kontekstində təhlil edilir. Kommunist totalitarizmini xarakterizə edən xüsusiyyətlər açıqlanır. Göstərilir ki, iqtisadi həyat da daxil olmaqla cəmiyyətin bütün sferaları total nəzarətə məruz qalır, xüsusi mülkiyyət ləğv olunur, nəticə etibarı ilə fəaliyyətin və cəmiyyət üzvlərinin muxtarlığının hər cür əsasları ləğv edilir. Hakimiyyət və xalq daxili «düşmənə» qarşı, «düşmən» isə xarici əhatə ilə mübarizəyə qalxır. Sosializm dövlətini qurmağa məcbur edilən xalqa tətbiq edilən de-yure və de fakto təzadları digər sahələrdə olduğu kimi milli-mənəvi dəyərlərə zərbə vurması tarixi faktlarla təhlil edilir.

Arxiv mənbələrinin verdiyi məlumatlara görə qeyd edilir ki, Şimali Azərbaycanı qəsb edən sovet rejimi qısa müddətdə burada 48 min adamı «qırmızı terrorun» qurbanı etmiş və ölkədə qurulan birpartiyalı diktatura rejimi Azərbaycan xalqının milli məfkurəsinə qadağa qoyaraq xalqın mədəni inkişafı üçün yaratdığı vahid «ənənəvi» sistemlə millət və vətən anlayışını sovet imperiyası məkanında bir pillə də geri atmışdır.Vətəndaşların şəxsi həyatı da daxil olmaqla ideologiya ictimai həyatın bütün sferalarına nüfuz edərək müəyyən hərəkətlərə sərt qadağalar qoymuşdur.

Cari siyasətdə sosializm quruculuğunun həyata keçirilməsində sovet amirlik aparatının ideoloji silahı mənəvi dəyərləri yox etmək uğrunda məqsədli iyrənc siyasət yürüdərək sinfi müba- rizə, beynəlmiləl tərbiyə və dinsizliyin təbliğini gücləndirilmiş, məktəblərdə təcrübi olaraq uşaqlarda bu istiqamətdə təsir üçün bütün vasitələrdən istifadə etmişdir. 1923-cü ildə 2000-dən çox türk müəllimi təqib və sürgün edilmiş, bir çox qəzalarda soy adlarında «bəy», «paşa» olan minlərlə müəllim işdən çıxarılmışdır. 8 sentyabr 1923-cü ildən sonra bağlanan dini nikahlar heç bir hüquqi qüvvə

daşımamışdır. Yeni insana vahid «ənənəvi ateizm» ruhlu sosial varlıq kimi baxılaraq məhərrəmliyin keçirilməsi ilə bağlı bütün qadağaların qoyulmuş, totalitar rejim özünün vahid «ənənəvi adət»lərini diktə etməklə toyda adət-ənənəyə uyğun olaraq verilən «damazlıq»ların ləğv edilməsi barədə qərar qəbul etmiş, islam dini adət və ənənələri müx- təlif ölkələrdən yanlış misallar gətirilməklə ramazanın səbəb və məqsədləri təhrif edilərək, orucluq bayramına qadağa qoyulmuş, əsassız səbəblərlə dinə sayğısızlıq göstərilmiş, gənclər arasında din- sizlik tərbiyəsinə xüsusi önəm daşımışdır.

Yaranmış «Allahsızlar ittifaqı» təşkilatının işi xalqın qədim milli adət-ənənələrinə müxtəlif rəsmi qadağalar qoymaqla, milli ruhdan çox-çox uzaq olan yeni adət-ənənələr yaradaraq (qırmızı toy, vətəndaş dəfni və s) və nəticədə xalqın milli və dini dəyərlərinə qarşı hörmətsizliklər anbaan artırmışdır. 1929-cu ildən başlayaraq ibadət binaları -13 qəza üzrə 219 məscid 2 mədrəsə, 18 kilsə digər təyinatlara (at tövləsi, anbar vəs.) verilmişdir. Qadınlar arasında çadranın atılması məcburi şəkildə həyata keçirilmiş, köhnəlik qalıqlarına qarşı mübarizə adı altında «antipapaq» kompaniyasına başlanılmış, bütün mədəni maarif müəssisəsində çalışanlardan min illər boyu milli qeyrət simvolu sayılan papağın atılması ilə bağlı qərar verilmiş, eləcədə dini və milli bayramlara qarşı açıq hücumlar nəticəsində “Novruz” bayramı dövlət bayramları siyahısından çıxarılmışdır.

aktlar bir daha göstərir ki, 20-30-cu illərdə rəsmi milli və dini siyasətdə, maarif sistemində, istehsalatda hökm sürən inzibati amirlik metodunun xüsusiyyətləri Azərbaycanda

reallaşan dövlət siyasətindən yan keçməmişdir. Bu totalitar rejimin həyata keçirdiyi siyasətin görünməyən tərəfləri idi.

**Açar sözlər:** Sovetləşmə, Azərbaycan, milli-mənəvi dəyərlər, ailə, Orucluq, Məhərrəmlik, Novruz, Şərq musiqisi, muğam, dil

# NATIONAL-MORAL VALUES OF AZERBAIJAN IN THE CONTEXT OF SOVIET STATE POLICY (1920-1940)

**Gulzar Ibrahimova**

***Nighde Omer Halisdemir University,***

*Faculty of Economic and Administrative Sciences, Department of Policy and International Relations, Doctor of Political Sciences, Professor*

**Summary**

The article analyses the national-moral values of Azerbaijan for the first decade of Sovietization in the political context of the soviet state and explains the peculiarities that characterize the communist totalitarianism. It says that, all spheres of society, including economic life undergo total control, private property is annulled and any and all basis of the autonomy of the members of the society and the activity are removed. The government and people struggle against "enemy", and the "enemy" against the surrounding. The effect of de-jure and de-facto contradictions (the contradictions that were applied to people who are enforced to build a socialist state) to the national and moral values are explained by historic facts as it is in the other fields.

According to the information provided by the archival sources, the soviet regime that invaded the Northern Azerbaijan in a short period of time sacrificed 48 thousand people to the "red terror", and the single-party dictatorship regime established in the country left the concepts of "nation" and "homeland" a step behind in the soviet empire through the single "traditional" system built for cultural development of the nation, having banned the national thinking of the Azerbaijani nation. The ideology, including the personal life of the citizens passed on to all spheres of public life and banned tough sanctions against certain acts.

In fulfillment of the socialist purposes in the current policy, the soviet government, as an ideological gun, pursued an offensive policy, strengthened the promotion of international upbringing and godlessness and used all means to affect the children practically in this field.

More than 2000 Turkish teachers were persecuted and exiled in 1923 and thousand of teachers with "pasha" and "bay" titles in their surnames were dismissed from their positions. The religious marriages concluded after September 08, 1923 have not been attached any legal force. The person of that period was treated as a social being with "traditional atheism" spirit, prohibitions were put against the muharrem rituals, the traditional customs of wedding, the purposes and reasons of the Ramadan were distorted by referring to some countries, the month of fasting was prohibited and atheism was propagated among the youth.

The "Atheists union" organization put different official prohibitions to the national traditions of the nation and created new traditions that were quite far away from the national spirit (Red

wedding, civilians' burial and so on) which led to disrespect to the national and spiritual values by time. Since 1929, 219 mosques, 2 madrasahs and 18 churches were utilized for other purposes (horse stables, barn and so on.) in 13 provinces. The women were forced to take off their veils and "antihat" propaganda was launched against the remnants of the old period. It was decided to take off hat that has been considered as a symbol of national self-esteem for thousands of years and "Novruz" Holiday was removed from the list of the public holidays as a result of obvious pressures against the religious and national holidays.

The facts show that, the peculiarities of the administrative domination in the official national and religious policy, enlightenment system and industry in the 20-30s years have affected the public policy realized in Azerbaijan. These were the invisible sides of the policy pursued by the totalitarian regime.

**Key words:** Sovietization, Azerbaijan, national-moral values, family, Fasting, Muharram, Novruz, Oriental music, mugham, language

# AZERBAYCAN`DA MİLLÎ MANEVİ DEĞERLER SOVYET DEVLET POLİTİKASI BAĞLAMINDA (1920-1940)

**Gulzar İbrahimova**

**Niğde Ömer Halisdemir Üniversitesi, İktisadi ve İdari Bilimler Fakültesi,**

***Siyaset bilimi ve Uluslararası ilişkiler bölümü,***

***Siyasi bilim doktoru, Profesör***

## Özet

Makalede sovyetleşmenin ilk on yılında Azerbaycan'da milli ve manevi değerler Sovyet devlet politikası bağlamında incelenir. Komünist totaliterizmini niteleyen özellikler açıklanır. Ekonomik yaşam da dahil olmak üzere toplumun tüm alanlarının tamamen denetime tabi olduğu, özel mülkiyetin kaldırıldığı ve sonuç olarak faaliyetin ve topluluk üyelerinin özerkliğin tüm gerekçelerinin kaldırıldığı gösterilmektedir. İktidar ve halk iç «düşmana» karşı, «düşman» ise dış kapsama ile mücadele ediyor.

Bir Sosyalizm devletini kurmaya zorlanan halka uygulanan de jure ve de facto tezatları diğer alanlarda olduğu gibi milli ve manevi değerlere darbe vurması tarihsel olgularla tahlil edilir.

Arşiv kaynaklarının verdiği bilgilere göre Kuzey Azerbaycan'ı gasp eden Sovyet rejimi kısa sürede burada 48 bin kişiyi «kırmızı terörün» mağdur etmiş ve ülkede kurulan tek partili (tek taraflı) diktatörlük rejimi Azerbaycan halkının milli mefkuresine yasak koyarak halkın kültürel gelişimi için yarattığı tek «geleneksel» sistemle millet ve vatan kavramını Sovyet İmparatorluğu mekanında bir aşama daha geri atmıştır. Vatandaşların özel yaşamı da dahil olmak üzere, ideoloji, kamusal yaşamın her alanına nüfuz etmiş ve bazı eylemleri kesinlikle yasaklamıştır.

Mevcut politikada sosyalizm kuruculuğunun uygulanmasında Sovyet emirlik aygıtının ideolojik silahı manevi değerleri yok etmek uğruna amaçlı iğrenç siyaset yürüderek sınıf mücadelesi, uluslararası eğitim ve dinsizliğin tebliğini güçlendirilmiş, okullarda deneysel olarak çocuklarda bu yönde etki oluşturması için tüm imkanları kullanmıştır.

1923 yılında 2000'den fazla Türk öğretmeni zulüm ve sürgün edilmiş, bir çok kazalarda soy isimlerinde «bey», «paşa» olan binlerce öğretmen işten çıkarılmıştır. 8 Eylül 1923'den sonra yapılan dinsel evliliklerin hukuki gücü yoktur. Yeni insana tek «geleneksel ateizm» ruhlu sosyal varlık olarak bakılarak Muharrem ayının geçirilmesi ile ilgili tüm yasakların konmuş, totaliter rejim kendisinin tek «geleneksel örf" lerini dikte etmekle düğünde örf geleneye uygun olarak verilen "damızlık" ların iptal edilmesi hakkında karar kabul etmiş, islam dini örf ve gelenekleri farklı ülkelerden yanlış örnekler getirilmekle Ramazanın neden ve amaçları tahrif edilerek, Oruçluk bayramına yasaklanan, asılsız gerekçelerle dine saygısızlık gösterilmiş, gençler arasında dinsizlik eğitimine özel önem taşımıştır.

Yaranan «Allahsızlar ittifakı» örgütünün işi halkın eski milli geleneklerine çeşitli resmi yasaklar koymakla, milli ruhtan çok çok uzak olan yeni gelenekler yaratarak (kırmızı düğün, vatandaş defni vb) ve sonuçta halkın milli ve dini değerlerine karşı saygısızlıklar durmadan devam etmiştir. 1929 yılından başlayarak ibâdet evleri-13 kaza üzere 219 cami 2 medrese, 18 kilise diğer yerlere (at çiftliği, depo vb.) verilmiştir.

Kadınlar arasında başörtüsünün çıkarılması zorunlu şekilde gerçekleştirilmiş, eski adetlere karşı mücadele adı altında "antipapak» kampanyasına başlanmış, tüm uygar eğitim kurumunda çalışanlardan bin yıllar boyu milli namus sembolü sayılan başörtüsünün çıkarılması ile ilgili karar verilmiş, aynı zamanda dini ve milli bayramlara karşı açık saldırılar sonucunda "Nevruz" bayramı devlet bayramları listesinden çıkarılmıştır.

Olgular bir kez daha göstermektedir ki, 20-30 yıllarında resmi milli ve dini siyasette, eğitim sisteminde, üretimde hüküm süren idari emirlik yönteminin özellikleri Azerbaycan'da gerçekleşen

devlet politikasından yan geçmemiştir. Bu totaliter rejimin uyguladığı politikanın görünmeyen tarafları vardı.

**Anahtar kelimeler:** Sovyetleşme, Azerbaycan, milli ve manevi değerler, aile, Oruçluk, Muharrem ayı, Nevruz, Doğu müziği, muğam, dil

## Giriş

Şimali Azərbaycanda sovetlərin hakimiyyətə gəlişi özünün müxtəlif təzadlı təzahürləri ilə tarixə düşdü. Yaranmış yeni hakimiyyətin ideoloji vədləri və məramı zahirən cəmiyyət üzvlərinin əksəriyyətinin niyyətləri ilə üst-üstə düşürdü. Hakimiyyətdən real surətdə uzaqlaşdırılan xalq totalitarizm şəraitində mənafeyinin hakimiyyət vasitəsi ilə tam ifadə olunacağına inanırdı. Ancaq bununla bərabər sovet rejimini xalqa paradoksallıqla dolu sənayeləşmə dövrünü də yaşatdı, «əmək qəhrəmanları»nı yetişdrdi.

5 may 1920-ci ildə torpaqların əski sahiblərindən alındığını elan edən dekret torpağı yoxsul kəndlilərə vermədi, sosializm dövləti quraraq kəndli dövlət üçün çalışan bir məmur vəziyyətinə salındı. Kolxoz və ya kollektiv əkinçilik mülkiyyəti şəxsi və fərdi mülkiyyəti ortadan qaldırmaqla, bir çox ictimai, iqtisadi və hüquqi münasibətləri dəyişdirdisə də, hələ bu kommunizmin tətbiqi de- mək deyildi. Əhalinin 75%-ni kəndlilər təşkil etdiyi bir vaxtda «Kommunist» qəzeti 1928-ci il 125 sayında yazırdı ki, «Azərbaycan aqronomlar qurultayı kollektivlərə girən kəndlilərin ərazi və əmlak məhsullarını birləşdirməkdən imtina etdiklərini, bunların birləşdirəcəklərini eşidincə kollektivlərdən çıxmağa başlayırdı». Qəzet kolxozlar daxilində belə şəxsi mülkiyyət olduğunu qeyd edirdi [Məmmədzadə, 2007: 74].

Dövrü mətbuatda 1918-1929-cu illərdə Azərbaycan qəzalarında sovet hökumətinin ərzaq hazırlığına qarşı ciddi müqavimətlə rastlaşdığı, kəndlilərin ərzağı dövlətə ucuz qiymətə satmaqdan imtina edərək quyulara basdırdıqları göstərilir. Məhz bu səbəbdən (Salyan, Lənkəran, Quba, Xızı, Şirvan, Ağdam, Göyçay və s.) yerlərdə kəndlilər mühakimə edilir və hərəkat siyasi bir məqsəd daşıyırdı [Məmmədzadə, 2007: 24].

1920-ci illərdə başlanan «kollektivləşmə» 1930-cu illərdə sona çatdı. «Müstəqil» Azərbaycanda partiya rəhbərliyi kənd əhalisini 100% kollektivləşməyə cəlb etmək üçün müxtəlif cəza tədbirləri görürdü: hədə-qorxular, həbsxanalar, sürgünlər, güllələnmələr, «kulak» hesab edilmək qorxusu… 1937-ci ildə artıq kəndli təsərrüfatlarının 86,5%-i zorla kolxozlara qatılmışdı. İnsanların hər

şeyi-torpağı, mal-qarası, texnikası da əllərindən alınırdı. Goranboyda, Samuxda, Qa- zaxda 400 silahlı dəstə və 5 min silahlı adam sovet rejiminə və kollektivləşməyə qarşı mübarizəyə qalxmışdı. Yəni, total hakimiyyət daxili «düşmənə» qarşı, «düşmən» isə xarici əhatə və rejimlə mübarizədə idi.

Azərbaycanın düşünən beyinləri, parlaq şəxsiyyətləri tez bir zamanda dərk etdilər ki, millət və vətən anlayışı sovet imperiyası məkanında bir pillə də geri atıldı. Tezliklə ölkədə millətin deyil, avtoritar şəxsin idarəçilik sistemi bərqərar oldu və bu, onilliklər boyu davam etdi. Vətəndaşların şəxsi həyatı da daxil olmaqla ideologiya ictimai həyatın bütün sferalarına nüfuz etdi, müəyyən hərəkətlərə sərt qadağalar qoyuldu. Mətbuat və radionun fəaliyyətinə ciddi senzura tətbiq edildi. So- vet Azərbaycanının «müstəqilliyi» ilk gündəcə formal xarakter daşıdı. Güc strukturları, siyasi hakimiyyət Moskva mərkəzinin tabeliyində olduğundan «Milli» Hərbi hissələr Qırmızı Ordunun tərkib hissəsi, hakimiyyət orqanları isə rus hakimiyyət orqanlarının aciz, hüquqsuz elementləri kimi formalaşırdı. Azərbaycan Fövqəladə Komissarlığı məhkəmə və istintaqsız kütləvi cəza tədbirləri görürdü. Azərbaycan Cümhuriyyətinin fəalları və tərəfdarları diqqətlə işlənib hazırlanmış repressi- yalara məruz qaldılar, mənən və cismən məhv edildilər. Arxiv mənbələrinin verdiyi məlumatlara görə Şimali Azərbaycanı qəsb edən sovet rejimi qısa müddətdə burada 48 min adamı «qırmızı terrorun» qurbanı etmişdi [Гусейнова, 2006: 294]. Bolşevik rejimi bütün partiyaların fəaliyyətini qadağan etmişdi. Ölkədə birpartiyalı diktatura quruldu. Azərbaycan xalqının milli məfkurəsinə qadağa qoyuldu. Bütün xalqların mədəni inkişafı üçün vahid «ənənəvi» sistemlər yaradıldı. Mos- kvanın hərb yolu ilə qurduğu bu sərt və amansız rejimə qarşı üsyanlar 1920-ci ilin mayında Gəncədə, iyununda Qarabağ və Zaqatalada, iyulda Şamaxıda, avqustda Quba, Qusar, Dəvəçidə, daha sonra isə Lənkəranda, Astarada və s. bölgələrdə baş verdi. Bolşevik rejimi Hakimiyyəti sürətlə şəxsiyyətə pərəstişə doğru aparırdı: bir neçə ildən sonra yalnız bir şah  Stalin oldu və ancaq onun icazəsi ilə tutulacaq işlər, deyiləcək sözlər «azadlıq» adlandı. Azərbaycanda isə millət və xalq sözü heçə endi.

Sovet cəmiyyətinin sərt ideoloji tələbləri, təzyiqləri və mənəvi terrorları nəticəsində 1937-ci il cinayətləri yaşanacaq repressiya qurbanları və onun acı faciəli sonluqları ilə tarixə düşdü.

**Milli varlığa və siyasi varlığa vurulan zərbə**

Sovet totalitar rejimi təsərrüfatın planlaşdırılmasında və mədəni həyatın idarə edilməsində də hüquqları məhdudlaşdırmışdı. **Milli kimlik** arxa plana keçmişdi. Hələ də pasportdan məhrum olan kəndlilərə sovet «təhkimçiliyini» yaşatmaqla həm bütün yeraltı və yerüstü sərvətləri totalitar dövlətin güclənməsi yolunda istismar edir, həm də imperiyanın «azad» və «bərabərhüquqlu» vətəndaşlarının hüquqlarını pozurdu. Mənəvi dəyərlər təkcə **milli varlığın yox, həm də siyasi varlığın** - dövlət

quruculuğu prosesinin mühüm xüsusiyyətidir. Aprel işğalı ilə formal “müstəqil” olan Azərbaycanda sovet hakimiyyəti ilk illərdə xalqı 86% seçki hüququndan məhrum etmişdi. Yalnız fəhlələr və kasıb kəndlilər, qızıl ordu əsgərləri (fəhlələrin xeyli hissəsi və qızıl ordu əsgərləri ruslardan ibarət idi) iştirak edə bilərdi. Varlı və ortabab imkanlı torpaq sahibi olan kəndlilərin hamısı xırda burjuaziya ünsürləri adı altında seçki hüququndan məhrum edilmişdilər. Əslində kənd təsərrüfatının əsas aparıcı qüvvəsini təşkil edən varlı və orta varlı kəndlilərlə bolşevik hakimiyyəti arasında prinsipial mübarizə gedirdi. Bu kəndlilər əkinçilikdə şəxsi təşəbbüs və fərdi təşkilat, ticarətdə isə inhisarların götürülməsini, sərbəst ticarət, sərbəst rəqabət və demokratik üsulu-idarə, sərbəst seçkilər istəyirdilər. Bunların qarşısını almaqdan ötrü bəzən qəzalara rus fəhlələrindən ibarət cəza alayları göndərilirdi. Qolçomaq adı ilə yüzlərlə insanın sürgün edilməsi, fiziki məhvi və onların əmlakının müsadirəsi və sürgün həyatı onların ailə üzvlərini, xüsusilə də qadınlarını, uşaqlarını mənən sındırır, onları fiziki cəhətdən ya şikəst, ya da yox edirdi. Məsələn, 1931-ci ildə Qasım İs- mayılov və Şamaxıda qadın kənd təsərrüfat müşavirələrinin keçirilməsi zamanı göstərilirdi ki, qolçomaq ailəsindən olan və seçici səsi olmayan qadınlar qadın kənd təsərrüfat müşavirəsi sovetinin üzvü ola bilməzdilər [AR MDA: f.379, siy.1, iş 3515, v. 1-9]. Göründüyü kimi, totalitar rejim xalqın milli düşüncəsini məhv etmək üçün onun nümayəndələrinin birliyini parçalayır, qolçomaq damğası altında əsl həqiqəti görüb və dərk edənləri fiziki məhv edir, ən yaxın doğmaları bir-birinə qarşı qoymaqla milli ruhu boğur və öz siyasətini düşünülmüş planlı şəkildə yerinə yetirirdi. Sözsüz ki, ölkədə gedən bu prosesdə Azərbaycanın milli maraqlarını istiqamətləndirməyə çalışan qüvvələrin hər birini repressiyalar gözləyirdi.

Azərbaycan SSR MİK-nın 1930-34-cü illərdə həyata keçirdiyi kütləvi sürgün həyatının nəticəsində ərlərini, oğullarını və ailə başçılarını itirmiş qadınların saysız-hesabsız müraciətləri daxil olurdu [AR MDA: f.379, siy.1, iş 5247, v.1-3; AR MDA: f.379, siy.1, iş 2727, v.1].

### Məktəblərdə dinsizliyin təbliği - vahid «ənənəvi ateizm» ruhlu yeni insan tərbiyəsi

Fərdin, qrupun, cəmiyyətin fəaliyyətinin, şüurunun və davranışının idarə edilməsində dini normaların, hüququn, əxlaqın təsiri böyükdür. Sözsüz ki, tabeçiliyində olan hər hansı bir xalqın ideoloji gücə malik olması sovet totalitar rejimini qane etmirdi. Rejimdə bütün qadağan olunanlar

«hakimiyyətin prinsipi əmrinə əsaslanır» prinsipi ilə şərtlənirdi. Cəmiyyət bu prinsipi rəhbər tutaraq insan tərbiyəsini həyata keçirirdi və bu yeni insan vahid «ənənəvi ateizm» ruhlu sosial varlıq idi.

Azərbaycanın dövlət xadimləri ölkədə baş verən proseslərin pərdəarxası mənasını tez bir zamanda dərk etdilər və vahid «ənənəvi ateizm» ruhlu yeni insan tərbiyəsi prosesinin milli dəyərlərin

dağılmasına xidmətdə olduğunu xalqa çatdırmağa çalışırdılar. Məsələn, N.Nərimanov 1924-cü ildə APİ-nin ilk məzunlarının buraxılışı münasibətilə "Elmlərini yeni tamam etmiş müəllimlərə" açıq məktubunda yazırdı:"Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar. Yəni bir parça çörəkdən ötəri ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün qatığa qara deməsinlər" [Əhmədov, 2010, 9 Aprel].

Mənəvi dəyərlərimizin təməl qaynaqlarından biri olan dinin insan mənəviyyatından yox olması istiqamətində məktəblərdə təbliğatlar gücləndirildi. Savadsızlığın ləğvi şəbəkəsinin genişlən-dirilməsi ilə bağlı 1927-28-ci illərdə ASSR-də məktəblərin ümumi təhsil səviyyəsi təhlil edilərkən 1 sıra çatışmamazlıqlar qeyd edilir. Məktəbin ictimai təşkilatlarla zəif əlaqəsi, əmək tərbiyəsinin aşağı səviyyədə aparılması və s. əksinqilabçı qüvvələrin meşşan burjua ideoloji məsələləri ilə uşaqları pioner təşkilatlarından uzaqlaşdırma halları göstərilir (mübarizə isə davam edirdi). Cari siyasətdə sosializm quruculuğunun həyata keçirilməsində (sənayeləşmə, kənd təsərrüfatının kollektivləşməsi) sinfi mübarizə, beynəlmiləl tərbiyə və **dinsizliyin təbliği** baxımından materialların zəif işlənməsi proqramın əsas nöqsanlarından hesab edilirdi. Ali Siyasi Maarif Komitəsində 1927-1928-ci illərdə milli mentalitetli (dağ yəhudiləri I, tat və s.) **ruhani məktəblərinə** qarşı mübarizə haqqında qərarlar geniş müzakirə obyekti idi [AR MDA: f.57, siy.1, iş 526, v. 2, 11-12]. Nöqsanların aradan qaldırılması məqsədilə bir sıra təkliflər irəli sürülür ki, bunların da əsaslarından biri sovet amirlik aparatının ideoloji silahı **mənəvi dəyərləri** yox etmək üçün məqsədli həyata keçirdiyi iyrənc siyasət idi: I dərəcəli məktəblərdə təcrübi olaraq sinfi, beynəlmiləl **din əleyhinə tərbiyəyə keçmək**, bey- nəlmiləl təcrübəni gücləndirmək üçün müxtəlif millətlərlə məktəb arasında sistem yaratmaq. **Uşaq- larda din əleyhinə** tərbiyəni gücləndirmək üçün məktəbin bütün işlərində – dərsliklər və proq- ramlarında bunu geniş əks etdirmək, müəllimlərin siyasi fəallığının zəif olduğunu (təbi ki rejimin siyasətini dəstəkləməkdə -İ.G.) nəzərə alaraq onlara siyasi təbliğatı gücləndirmək, mühazirələr oxu- maq və müəllimlərin siyasi tərbiyəsini xüsusi və dövri mətbuat vasitəsilə genişləndirmək və dərinləşdirmək məqsədi qarşıya qoyulmuşdu. Əslində isə türk müəllimləri işləri idarəsinin qeyri türklərə həvaləsinə etirazı zəminində onları iki qismə bölərək (burjua nümayəndələri və s.) bir qisminə qarşı ən qatı və şiddətli cəza tədbirləri, digərlərinə ehtiyatla yanaşmaq məsləhət görülürdü. Nəticə etibarı ilə mənzərə belə idi: 1923-cü ildə 2000-dən çox **türk müəllimi təqib və sürgün edilmişdi**. Azərbaycanda əsl türk kommunist kadrların yetişməsinə imkan verilmirdi [Məmmədzadə, 2007:104]. 1928-1929-cu illərdə Bakıda 7 ibtidai və orta türk məktəbi bağlanaraq, burjua və əsnaf uşaqları məktəbə buraxılmadı. Türk müəllimlərinin işdən çıxarılması isə davam edirdi. Salyan, Gəncə, Şəki-Cəbrayıl, Cavanşir, Cavad və

s. qəzalarda soy adlarında «**bəy», «paşa**» olan minlərlə müəllim işdən çıxarılır, müəllimlərin öz mənafeyinə tabe etmək siyasəti yürüdürdü [Məmmədzadə, 2007:112].

**Milli və dini bayramlara qoyulan qadağalar, milli dəyərlərin dağıdılması**

Kommunist ideologiyasının ayrılmaz tərkib hissəsi olan ateist dünyagörüşü öz mövqeyini möhkəmlədir və rəsmi dövlət siyasəti formasında həyata keçirilir. 1920-ci ilin ortalarından güc toplayan ateist təbliğat din əleyhinə fəal və məqsədyönlü mübarizəyə çevrilir. Əslində 1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra kommunist ideologiyasına əsaslanan yeni hökumət öz qayda-qanunları ilə birgə yeni məzmunlu bayramlarını da gətirdi. Lakin, Azərbaycanın əsasən ruslar, ermənilər və qismən azərbaycanlılardan ibarət olan bolşevik hökuməti ilk gündən dinin dövlətdən ayrıldığını elan edib bir çox dini müəssisələri, o cümlədən şəriət məhkəmələrini ləğv etsə də mövcud şəraiti nəzərə alaraq əhalinin, xüsusilə müsəlman əhalisinin dini görüşlərinə və həmçinin dini bayramlarına müəyyən mənada dözümlülük nümayiş etdirməyə məcbur olur. Odur ki, "inqilabi" bayramlar adlanan yeni bayramlarla yanaşı bir müddət yerli əhalinin - istər müsəlman, istər xristian, qriqorian, katolik və s. milli və dini bayramları hökumət səviyyəsində saxlanılır və rəsmi olaraq istirahət günləri kimi təqvimə salınır. Belə ki, 1920-ci

ildə Azərbaycan SSR-in Əmək Xalq Komissarlığı - Qurban, Ramazan, Novruz bayramlarını və Aşura gününü istirahət günləri elan edir.

1924-cü ildə əvvəllər 2 gün bayram edilən Novruz və Ramazan bayramlarının hərəsinin bir gün qeyd edilməsi haqda yeni qərar qəbul edilir. 1925-ci ildə həmin məsələyə bir də baxan Azərbaycanın Əmək Xalq Komissarlığı və Az.K(b)P rəyasət heyətinin 1925-ci il 14 mart tarixli qərarı ilə Azərbaycanda 10 inqilabi və hər dini qrup üçün (müsəlman, xristian, erməni-qriqorian) 6 dini bayram günü təsdiq edirdi. Lakin Zaqafqaziya Əmək Komissarlığı bu qərarı qəbul etməyərək bayram günlərinin 14 gündən artıq olmaması və bu səbəbdən 8 inqilabi, 6 dini bayram günü təyin edilməsini məqbul sayır. Türklər üçün nəzərdə tutulan bu bayramların siyahısına Novruz bayramı, orucluq bayramı, qurban bayramı, aşura günü, Bist- Haştun, Mövlude Nəbi günlərinin istirahət günü olması təklif edilir.[Rüstəmova:www.azerbaijan-news.az/index.php?mod=3&id=65174]

Rusiya Kommunist (bolşeviklər) Partiyasının Zaqafqaziya Vilayət Komitəsi rəyasət heyəti 1925-ci il 27 mart tarixli iclasında bayramlarla bağlı istirahət günləri məsələsini müzakirə edərkən hər Qafqaz respublikası üçün ümumdövlət bayramlarından başqa 2 inqilabi bayram - (26 Bakı Komissarlarının xatirəsi və hər respublikanın sovetləşdirilməsi günü) və "Əmək haqqında Qanunlar Kodeksinin III maddəsinə" əsasən 6 bayram - hər respublikanın milli-dini tərkibi və məişət şəraiti ilə

bağlı bayramlarla əlaqədar istirahət günlərinin elan edilməsi qərarını təsdiq edir. Həmin qərarda bu bayramların inzibati qaydada vətəndaş və ya inqilabi bayramlarla əvəz edilməsinə yol verilmədiyi xüsusi vurğulanır və Azərbaycan hökumətinə respublikada bu günlərlə bağlı yeni istirahət günlərini müəyyənləşdirmək tapşırılır.

Qeyd olunmalıdır ki, yuxarı orqan sayılan RK(b)P ZVK-nin dini bayramların inzibati qaydada vətəndaş bayramı ilə əvəz edilməsinin yolverilməz olduğu barədə xəbərdarlığına baxmayaraq həmin qərarı müzakirə edən Az.K(b)P Mərkəzi Komitəsi 1925-ci il 1 aprel tarixli iclasında Əmək Xalq Komissarlığının verdiyi təqdimata əsasən türk (Azərbaycan), rus və erməni əhalisi üçün bayram-istirahət günlərini müəyyənləşdirərkən hər dini qrupun bir dini bayramını

- türklər üçün "Bist-Həştun" gününü, rus və ermənilərin "Voznesenie" gününü ləğv edir, rus və erməni pasxa günlərini isə birləşdirir. Hər milli qrupun dini bayramlarından qalan bir gün isə 2 may tarixdə vətəndaş bayramı kimi istirahət günü elan edilir. Göründüyü kimi Novruz türklərin istirahət-bayram günləri siyahısında birinci göstərilsə də bu bayram müsəlman əhalisinin dini bayramları sırasına daxil edilirdi. Bir müddət sonra bu məqam Novruzun rəsmi bayram kimi keçirilməsinə öz mənfi təsirini göstərir. [Rüstəmova: www.azerbaijan-news.az/index.php?mod]

Milli-mənəvi dəyərlərin aşındırılmasının davamı olaraq 1925-ci ildə ölkədə "Allahsızlar İttifaqı" adlı ictimai cəmiyyət yaradılır. 1929-1930-cu illərdə bu cəmiyyət artıq "Mübariz Allahsızlar İttifaqı" adlanmağa başlanır. Təşkilat var gücü ilə xalqın milli və dini dəyərlərinə qarşı hörmətsizlikləri əməli şəkildə gerçəkləşdirirməkdə davam edirdi. Belə ki, 1929-cu ildən başlayaraq ibadət binaları -13 qəza üzrə 219 məscid, 2 mədrəsə, 18 kilsə digər təyinatlara (at tövləsi, anbar və s.) verilir. [AR MDA: F.1 siy. 74, iş 287, q.41, s.15]. Hətta Azərbaycanın "Molla Nəsrəddin" satirik jurnalı da onun naşiri və redaktoru Cəlil Məmmədquluzadənin iradəsinə zidd olaraq 1931-ci ildə bu ittifaq altında dinə qarşı aparılan kompaniyaya məcburi cəlb edilir, adı dəyişdirilir və jurnal bu İttifaqın mətbu orqanı kimi "Allahsız" adı ilə buraxılır. "Allahsız"ın ilk nömrəsi uğursuzluqla qarşılandığından jurnalın nəşri dayanır. [Cəlil Məmmədquluzadə Ensiklopediyası].

Din əleyhinə başlanan və bir qədər üstüörtülü, şəkildə aparılan mübarizə 1929-cu ildən açıq və kəskin şəkil alır. 1929-cu ildə AK(b)P-nin Bakı komitəsinin 13 fevral tarixli iclasında "Ramazan və Novruz bayramlarına qarşı Kampaniyanın keçirilməsi" adı ilə qəbul edilən sənəd Novruzun rəsmi şəkildə hər hansı formada qeyd olunmasına qadağa qoyur. 6 fevraldan 23 marta qədər keçirilməsi nəzərdə tutulan bu tədbirlər planında 7-14 mart günləri "zərbəçi" həftə elan edilərək bütün istehsalat sahələrində, fəhlə və digər klublarda, "Allahsızlar ittifaqının" yerli özəklərində, mətbuatda,

məktəblərdə, kitabxana və qiraətxanalarda tədbirlər keçirmək, dinin “sosializm quruculuğu yolunda maneə olduğunu izah etmək, islamın və onun bayramlarının sinfi, “irticaçı” mahiyyətini ifşa etmək, onların mənşəyini və zərərli mahiyyətini göstərməyi” zəruri sayılır.

Bütün bunlar sovet rejiminin dinlə mübarizə adı altında ardıcıl şəkildə Azərbaycan xalqının milli bayramlarını tədriclə onun həyatından çıxarmaq və xalqın həyatına zorla tətbiq edilən yeni sosialist ruhlu bayramlarla əvəz etmək siyasəti yeritdiyini göstərirdi. Təsadüfi deyil ki, bu siyasətin nəticəsində artıq 1930-cu illərdən başlayaraq Novruz bayramı nəinki rəsmi şəkildə, dövlət səviyyəsində qeyd olunmur, hətta bu barədə bayramqabağı ölkə mətbuatında hər hansı şəkildə müsbət xarakterli yazılar dərc etmək təcrübəsinə son qoyulur. "Mübariz allahsızlar ittifaqı" təşkilatı bayram günlərində küçə-küçə, ev-ev gəzir, bayramı qeyd edən, evində səməni yetişdirən, tonqal üstündən atılan kommunist və komsomolçuları cəzalandırırdılar. Bundan sonra nəhayət 1937-ci ildə, SSRİ Konstitusiyasının qəbulu ilə bütün dini və milli bayramlar qadağan edildi.

Lakin Novruza qarşı rəsmi surətdə, hökumət səviyyəsində son dərəcə mənfi münasibətə və onun açıq qeyd edilməsinə qoyulan qadağalara baxmayaraq bu bayram Azərbaycan xalqı arasında yaşamaqda və öz məzmununu saxlamaqda davam edirdi. Sırf məişət zəminində bayram edilən Novruzun bir sıra ayrılmaz atributları - axır çərşənbələrin keçirilməsi, səməni qoyulması, tonqallar qalanması, evlərdə bayram süfrələri açılması, insanların bayram günlərində bir-birinə qonaq getməsi öz əhəmiyyətini saxlayır, bu bayramla bağlı mərasimlər, şeirlər, nəğmələr və s. isə artıq “Novruz” deyil, “Bahar bayramı”, “Yaz bayramı” adı ilə bu və ya digər səviyyədə Azərbaycan ədəbiyyatında, məktəb dərsliklərində əks etdirilir.

Bu rəsmi qadağan 20 il qüvvədə olub. 1950-ci illərin ortalarından başlayaraq Stalinin ölümündən sonra ölkədə yaranan yeni siyasi-ictimai şəraitdə bütün Sovet İttifaqında olduğu kimi Azərbaycanda da milli xarakterli bir sıra məsələlərlə - dil, tarix, ədəbiyyat və s. - yanaşı milli bayramlar, o cümlədən Novruz mövzusu da gündəmə gəlir.

Araşdıralan dövrdə sırf islam dini mərasimlərinə, ilk növbədə **məhərrəmliyə** qarşı elan edilmiş müharibə digər dini bayramlara da şamil edilir. MİK-nın sənədlərində məhərrəmliyin keçirilməsi ilə bağlı bütün qadağaların qoyulması və bütün zəhmətkeşlərin, xüsusilə də qadınların məhərrəmliklə bağlı savadlanması ilə əlaqədar məlumatlar verilirdi [AR MDA: f.379, siy.1, iş 944]. Totalitar rejim özünün vahid «ənənəvi adət»lərini ardıcıl diktə etməkdə idi: 1926-cı ildə toyda adət-ənənəyə uyğun olaraq verilən «**damazlıq**»ların ləğv edilməsi barədə qərar qəbul edilir [AR MDA: f.379, siy.1, iş 788, v.1]. «**Orucluq**» adlanan digər bir yazı geniş müzakirəyə çıxarılır. Ya- zıda islam

dini adət və ənənələri müxtəlif ölkələrdən misallar gətirməklə ramazanın səbəb və məqsədləri təhrif edilir, əsassız səbəblərlə dinə saygısızlıq göstərilir [AR MDA: f.57, siy.1, iş 322, v. 34-41]. ASMİ gənc nəslin bu istiqamətdə təlim tərbiyəsini dövlətin qarşıya qoyduğu ən mühüm vəzifə hesab edir və təhsil prosesində məktəbin həyata keçirdiyi məsələlərdən biri kimi **dinsizlik** tərbiyəsinin əsas olduğunu göstərir [AR MDA: f.57, siy.1, iş 589, v. 9]. Bəzi bölgələrdə hələ sovet məktəbi tipinə zidd olan mədrəsələrin (Lənkəran, Zaqatala) mövcudluğu nəticəsində dini təşkilatların öz təbliğatları ilə kənd sovetlərinə, kooperasiyalara təsir etməklə qadın və uşaqlar arasında əksinqilabi əhvalı-ruhiyyəni gücləndirdiyi qeyd edilir. Yerli partiya orqanları tərəfindən din əleyhinə aparılan kompaniya zamanı «Allahsızlar ittifaqı» təşkilatının işi qənaətbəxş hesab edilmədiyindən qəti tədbirlərin görülməsi qərara alınır. Bu tədbirlərin reallaşdırılması məqsədilə xalqın qədim milli adət-ənənələrinə müxtəlif rəsmi qadağalar qoyulur əvəzinədə milli ruhdan çox- çox uzaq olan yeni adət-ənənələr yaradılır və həyata keçirilir (qırmızı toy, vətəndaş dəfni və s.). Nəticədə xalqın milli və dini dəyərlərinə qarşı hörmətsizliklər anbaan artırdı [AR MDA: f.57, siy.1,iş 773, v.4]. Elə məhz həmin illərdə rejimin yürütdüyü siyasətə zidd olsa da xalqın milli adət-ənə- nələrinin qorunub saxlanması məqsədilə Dostuxanım Səfərova həm köçəri, həm də oturaq həyat tərzi yaşayanların ailə və məişətinə aid edilən toy adətlərindən, uşağın doğulmasından tutmuş mal- darlıq adətlərinədək yazıya alıb saxlamışdır [AR MDƏİA: f.366, siy.8, iş 3, v.1-61; AR MDƏİA: f.442,siy.4, iş 137, s. 40-100]. Sözsüz ki, milli adət-ənənələrə, milli məfkurəyə yasaq qoyulduğu bir zamanda Dostuxanım Səfərova bu addımı atarkən həyatı üçün yaşanacaq bütün ciddi təhlükələrə hazır idi.

**Rədd olsun çadra, rədd olsun papaq! kampaniyaları**

Azərbaycanda müsəlman əhalisinin məişət mövhumatının, cinsi bərabərsizliyinin əlaməti olan çadranın aradan qaldırması ictimai-mədəni əhəmiyyətli hadisələrdən biri idi. Lakin qadın həyatının bu orta əsrlər rudimentindən xilas edilməsi, buna bənzər demokratikləşdirmə tədbirləri çox vaxt əsl antidemokratik üsullarla aparılırdı. Məsələn, məktəblərdə, mədəni-maarif müəssi- sələrində oxuyan talibələr, habelə işçi qadınların çadranı atmaları haqqında Xalq Maarif Komis- sarlığı kollegiyasının 24 noyabr 1928-ci il tarixli qərarında nəzərdə tutulurdu ki:

1. Maarif və incəsənət sahəsində çalışan bütün əməkçi qadınlar, məktəb müdirləri, müəllimlər, mürəbbiyələr və birinci, ikinci, üçüncü dərəcəli məktəblərdə, texnikumlar, institutlar, ali məktəblər, cocuq evləri, yaslılar və əmək koloniyaları, inzibati və texniki heyətdə çalışan qadınlar, klub, qiraətxana, məişət komaları, gənclər bölmələri və s. mədəni-məişət müəssisələrində işləyən fəhlə və kəndli qadınlar, həmçinin Azərbaycan məktəbindəki talibələr məcburən çadralarını çıxar- malıdırlar.

2. Yuxarıda göstərilən şəxslərin istər müəssisə daxilində, istərsə də müəssisə xaricində çadrada gəzmələri yasaq edilir.

3. Yuxarıda göstərilən müəssisələrin pedaqoji-inzibati və texniki heyətinə mənsub şəxslər bu qərarı pozarlarsa, məsuliyyətə cəlb olunacaqlar.

4. Bu qərarı həyata keçirməyən başqa şəxslər, çadranın atılmasına mane olanlar, bu və ya başqa yolla məcburən çadra örtdürənlər və yaxud I maddədə göstərilən şəxsləri təqib edənlər şiddətli məsuliyyətə cəlb olunacaqlar [4. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 526, v. 230].

Çadranın ləğvi ilə bağlı növbəti addım 3 dekabr 1929-cu ildə çadranın ləğv edilməsi haqqında Azərbaycan SSR MİK-nın təşkilat şöbəsinin Azərbaycanın bütün zəhmətkeşlərinə müraciətində Azərbaycan qadınının azadlığı uğrunda keçdiyi yol və çadranın atılmasının rolu qeyd edilirdi [AR MDA: f.379, siy.1, iş 2353, v.1-9]. Bu dövrdə həyatını, məişətin müasirləşdirilməsi, köhnəlik qalıqlarına qarşı mübarizə adı altında atılan əcaib addımlardan biri də «antipapaq» kompaniyası oldu. Müsəlman kişilərin əsrlərlə daşıdıqları papaq da çadranın güdazına getdi. XMK tərəfindən elə bu dövrdə qəbul edilən qərarlardan birində bütün mədəni maarif müəssisəsində çalışanlardan papağın atılması tələb olunurdu.

«Rədd olsun çadra, rədd olsun papaq!

1. Hər cürə tip və dərəcəli maarifə dair pedaqoji, inzibati-texniki heyət və bütün mədəni- maarif idarəsində çalışan şəxslərə və tələbələrinə papaq geymək qadağan edilir.

2. Birinci maddədə göstərilən bütün şəxslərin papağı çıxarıb Avropa qiyafələri örtü geyimləri (Şapka, furaşka, şlyapa və s.) təklif (necə də böyük lütf – G. İ.) edilir [AR MDA: f.379, siy.1, iş 2353, v.244-245].

**Milli musiqiyə məhdudiyyətlərin tətbiqi**

Milli dəyərlərimiz deyəndə, qulaqlarımızda ruhumuzu kökləyən muğam sədaları səslənir, tar səsi gəlir. Azərbaycanda milli ruhun öldürülməsi istiqamətində görülən işlərdən biri də Şərq musiqisi və tar alətinin konservatoriyada tədrisdən çıxarılması idi. 1929-cu il yanvar ayının 12-də Dadaş Bünyadzadə adına Türk Akademik Teatrosunda incəsənət və musiqi işçilərinin ümumi yığıncağı keçirilir. Bu yığıncağda "İnqilab və mədəniyyət" jurnalının redaktoru Mustafa Quliyev imperiya siyasətinə müvafiq olaraq Şərq musiqisi və tar alətinin konservatoriyada tədrisdən çıxarılması ilə bağlı məruzə edir. Bu barədə "İnqilab və mədəniyyət" jurnalının "Xronika" səhifəsində "Tar

konservatoriyadan çıxarıldı" başlıqlıməqalədə məlumat verilirdi: "Azərbaycan Dövlət Konservatoriyasını qüvvətləndirmək məqsədilə AXMK bir çox qərar qəbul etmişdir. Bu qərarlara görə məcburi dərs kursu olan tarın öyrənilməsi konservatoriyanın bütün dərəcələrində tədris planından götürülür və konservatoriya yanında olan Şərq orkestrosu ləğv olunur. Tar ancaq cümə konservatoriyasında keçiləcəkdir" [İnqilab və mədəniyyət jurnalı, 1929: 39.]. M.Quliyevin həmin məqaləsindəki bəzi məqamlara diqqət yetirək: "Moskva konservatoriyasının yanında el musiqi alətlərini öyrədən kurslar təsdiq edilmişsə də balalayka, mandalina mütəxəssisləri hazırlayan heç bir kurs yoxdur. Biz də konservatoriyamızı bu əsas üzərində quraraq, oradan tar mütəxəssisləri buraxmamalıyıq" ["İnqilab və mədəniyyət" jurnalı, 1929: 26], "Bundan başqa tarın heç bir gələcəyi yoxdur və ola da bilməz" "Tar öz-özünə həyat səhnəsindən çıxacaqdır" [İnqilab və mədəniyyət jurnalı, 1929: 27].

Lakin, o dövrdə ölümün gözünə dik baxan bəzi ziyalılar (Üzeyir Hacıbəyov, Əfrasiyab Bədəlbəyli, Cəfər Cabbarlı, Mikayıl Müşfiq və b.), azlıq təşkil etsələr də, dövrü mətbuatda M. Quliyevin məlum məruzəsini tənqid etdilər. Tar alətinə olan ögey münasibətə cavab olaraq Ə.Bədəlbəyli "Tar üzərinə mühakimə münasibətilə" məqaləsində yazırdı: "Tar Azərbaycan xalqının musiqi instrumentidir. Tarın nota ilə çalınması işində böyük müvəffəqiyyətlər vardır. Tarı "muzeyə göndərmək" təşəbbüsü yanlışdır. Tarın tərəqqi yolunu kəsməməli. Beynəlxalq musiqi alətlərindən başqa, hər xalqın özünəməxsus bir çox musiqi aləti dəxi vardır. Bunların bəzisi öz qayırılışı, səsi və dəyərinə görə çox geniş intişar tapdığından (ingilis tütəyi kimi) beynəlxalq musiqi instrumentləri sırasına daxil olur. Bəziləri isə tərəqqi etmir, öz ibtidai halında qalırlar (saz kimi). İnqilabdan sonra Şuralar İttifaqında xalq musiqi instrumentləri geniş intişar tapmışlardır. İşçi klubları, kəndli guşələri, qızıl ordu hissələrində xalq musiqi instrumentləri dərnəkləri təşkil olunmuşdur. Avropa və Amerika ölkələrində də hər xalq öz musiqi instrumentinə "mülki hüquq" verməyə, onu beynəlxalq musiqi instrumentləri ailəsinə daxil etməyə çalışır. Bizim xalq musiqi instrumentlərindən ən çox tərəqqi və intişar edəni – tardır. Bir çoxları tarın Azərbaycan musiqi instrumenti olmadığını və rozəxanlar, mərsiyəxanlar ilə birlikdə İrandan gəldiyini və böyləliklə də xalis İran musiqi instrumenti olduğunu söyləyirlər. Bu fikir çox da doğru deyildir. Əgər tar, Azərbaycana İrandan gəlmişsə, hər halda tarın İranda icad edildiyi dəxi doğru deyildir. Miladdan 2000 il qabaq misirlilərin "Nabla" adlı musiqi instrumenti tarın ibtidai bir şəklindən başqa bir şey deyildir. Misirlilərin nablası, İranda Əbu Nəsr Farabi tərəfindən təkamül edilmiş, İran tarı halına salınmışsa, Azərbaycanda da İran tarı məşhur tar çalan Sadıq tərəfindən büsbütün dəyişdirilmiş, azərbaycanlaşdırılmışdır..." [Bədəlbəyli: 1929, №9.]. Və beləliklə milli musiqimizə qarşı başladılmış bu kompaniyanı durdurmaq mümkün oldu.

**Sovetləşmə dövründə dil siyasəti**

Azərbaycanda dil siyasətinin yürüdülməsi Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayır və bu dövrdə görülən genişmiqyaslı işlər ayrıca tədqiqat mövzusudur. 1920-ci il aprel işğalı ilə Azərbaycan Xalq Cümhuriyyəti milli süquta uğradıldı. Cümhuriyyətdən sovetləşməyə keçid siyasi-ideoloji xarakteri etibarilə tamam fərqli bir dövlət-idarəçilik sisteminin qərarlaşdırdı. Digər sahələrdə olduğu kimi dövlət dil siyasəti də dəyişdi.

Formal müstəqil ölkədə sovetləşmənin ilk onilində milli-mədəni və mənəvi dirçəliş dalğası, eləcə də "Bir dəfə yüksələn bayrağın bir daha enməyəcəyinə" olan inam hələ tamamilə sönməmişdi. Əslində, «bolşevik ideoloqları xalqı öz tarixi köklərinə, milli dəyərlərinə özgələşdirmək üçün mədəni irsə nihilist münasibət yaratmaq kimi, hətta sonralar Lenin tərəfindən tənqid edilən proletkultçu metodlardan istifadə edirdilər». Lakin mərkəzi hakimiyyət zor, güc və siyasətlə sovetləşdirdiyi milli respublikaları nəzarətdən heç cür buraxmaq fikrində deyildi. Odur ki, yerlərə, regionlara, millətlərə hücumlar edilsə də, bəzən güzəşt kimi görünən hərəkətlərə də yol verirdi. Rejim gələcək siyasi ambisiyalarını tamamla- maq üçün bir sıra gedişlər etməkdə idi. Belə ki, mədəni inqilab adı altında əski əlifbadan (ərəb əsaslı Azərbaycan əlifbasından) latın əsaslı əlifbaya keçid ardıcıl olaraq müzakirə edilir, dil məsələsi ümumtürk kontekstində təqdim olnurdu. 1922-ci ildə N.Nərimanovun başçılıq etdiyi xüsusi komitə geniş müzakirələrdən sonra latın qrafıkası əsasmda yeni Azərbaycan əlifbasının layihəsini mətbuatda dərc etdirdi. N.Nərimanova görə ana dili təkcə milli mənliyin deyil, həm də, milli yaddaşın, milliözünüdərkin ən ali simvolu, kodu və açarı kimi təqdim  olunur. Təlimin ana dilində aparılması ideyası onun pedaqoji fikirlərinin əsasını təşkil edirdi. "Millətin dilini bilmədən, onun dərdinə dava etmək çətindir", - deyən N.Nərimanov müəllim işini həkimliklə müqayisə edir və göstərirdi ki, "həkim azara görə dərman verdiyi kimi, müəllim də tələbə görə bilik verməlidir" ..."İnsanın dili onun qanıdır. Qan təmiz olanda ürək yaxşı işlədiyi kimi, dilin də saf olması millətin tərəqqisinə səbəb olur". (Əhmədov, 2010:

№13)

1923-cü ildə isə Azərbaycan MİK və XKŞ 1924-cü ildən başlayaraq ərəb əlifbası ilə yanaşı yeni əlifbanı da rəsmi olaraq dövlət əlifbası kimi qəbul etmək haqqmda dekret imzaladı. Bunun ardınca S.Ağamalıoğlunun sədrliyi ilə Moskvada şərqşünasların toplantısı (15 sentyabr 1925-ci il) keçirildi ki, həmin toplantı əlifba məsələsini həll etmək üçün Bakıda türkoloqların qurultayının çağrılmasmı qərara aldı. (Каграманлы, 2012: 24-29)

26 fevral-5 mart 1926-cı ildə Bakıda keçirilmiş və tarixə I Türkoloji Qurultay kimi daxil olmuş bu möhtəşəm forum sovet hakimiyyətinin ilk illərdə qazanılmış dil siyasəti təcrübəsini ümumiləşdirdi (təbii ki, burada XX əsrin əvvəllərində, xüsusilə Cümhuriyyət dövründə yaranan təcrübə də ehtiva olunurdu), yalnız yeni əlifbaya keçidin zərurətini təsdiq etməklə qalmayıb, terminologiya, ədəbi dil normaları və s. aktual məsələlər ətrafında da müzakirələr açaraq ciddi qərarlar qəbul etdi. Sonralar I Türkoloji Qurultayın kifayət qədər obyektiv şəkildə və yüksək akademik səviyyədə müzakirə edilib qəbul olunan qərarları tədricən yenidən «müzakirə edilməyə», dövrün siyasi-ideoloji konyukturası mövqeyindən redaktə olunmağa başlasa da, nə 20-ci illərin ikinci, nə də 30- cu illərin birinci yarısında Azərbaycan türkcəsinin dövlət dili kimi inkişafının qarşısını almaq mümkün olmadı. Sovet hökuməti ilə Türkiyə Cümhuriyyəti arasmdakı anlaşma nəticəsində 1924-cü ildən etibarən Azərbaycan məktəblərində dərs demək, proqram və dərsliklər hazırlamaq məqsədi ilə türkiyəli müəllimlər dəvət edildilər. Onların Azərbaycandakı fəaliyyəti uzun sürməsə də, dil proseslərinə təsirləri ötəri olmadı. 20-ci illərin ikinci, 30-cu illərin birinci yarısında Azərbaycan ədəbi dilində Türkiyə türkcəsi elementlərinin (fonetik, leksik və qrammatik səviyyələrdə) geniş meydan alması həmin fəaliyyət və təsirin nəticəsi idi.

Birinci Türkoloji Qurultayın Azərbaycanda keçirilməsi bütövlükdə siyasi rejim tərəfindən düşünülmüş, ssenariləşdirilmiş "faciə səhnələri"nin yaranmasına xidmətdən yan keçmədi. Belə ki, mərkəz qurultayın keçirilməsinə rəvac verməklə, sanki opponentlərinin milliözünüdərk, milli şüur, milli dirçəliş, ümumtürk milli-mənəvi dəyərlər və s. bu kimi fikirlərinin ifadə edilməsinə geniş meydan açmaqla qarşısına belə bir məqsəd qoymuşdu: onların millət olaraq gələcəyə baxış perspektivlərini bir daha müəyyənləşdirmək, buna müvafiq olaraq növbəti illər üçün cəza tədbirlərini planlaşdırmaq. Yəni, niyyət imperiya siyasətinə xidmətdə idi: ümumtürk milli-mənəvi dəyərlərdən uzaqlaşdırma strategiyasına dayanan daxili milli siyasəti gerçəkləşdirmək. Dil faktı türk xalqlarının mədəni inteqrasiya- sında, birləşməsində genetik baxımdan qohumluğunun işbat edilməsində əsas amillərdəndir. SSRİ-də çoxlu müstəqil türk "millət"lərinin və onların "milli ədəbi dil"lərinin yaradılması ümumtürk milli birliyə açılan qapıların bağlanması, latın əlifbasına sürətli keçid əski əlifba ilə yazılan minillik yazılı mənbələrin məhvi və ya ondan uzaqlaşdırılması, növbəti mərhələdə ondan da sürətlə kiril əlifbasına keçid isə ruslaşdırılma siyasətinini əsas elementlərindən idi. Və bu növbəti onillkdə yekunlaşdı.

Azərbaycandan Qurultayda iştirak edən on yeddi nəfər nümayəndənin biri –Səmədağa Ağamalıoğlu 1930-cu ildə dünyasını dəyişib, başqa yerdə qalan bütün nümayəndələr 1937-ci il

repressiyasının qurbanı oldular. Qurultayda baş verən hadisələr, irəli sürülən fikirlər 1937-ci ildə baş verəcək qanlı repressiyanın əsas istinad nöqtələrindən biri oldu. (Birinci Türkoloji Qurultay, 2016: 12)

Hələ Qurultay başlamamışdan əvvəl 9 dekabr **1925-ci ildə** Türkiyənin qurultayın işinə ideoloji təsirinin qarşısını mümkün qədər azaltmaq üçün Türkiyədən nümayəndələrin gəlməsinə mane olmaq məqsədilə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Birləşmiş Dövlət Siyasi İdarəsi **bir neçə nəfəri** həbs etdi və bununla da Moskva Türkiyə diplomatlarını gərginlik altında saxladı. Qurultaya qatılan 131 nümayəndədən Türkiyəni, ikisi başqa millətdən və biri rəsmi şəxs olmaqla cəmi 5 nəfər təmsil edirdi: prof. Əli bəy Hüseynzadə, prof. Mehmet Fuad Köprülüzadə, prof. Yulius Mesaroş (macar), prof. Paul Vittek (alman) və Bakıdakı Türkiyə konsulu Fərid Xurşid. Qurultaya təkcə Moskvadan 17, Leninqraddan 12 nümayəndə gəlişini nəzərə alsaq bu sayın Türkiyə Cümhuriyyəti üçün çox kiçik rəqəm olduğu danılmazdır (Tahirzadə, 2016: 33).

Bütünlükdə "1926-cı il Birinci Bakı Türkoloji qurultayı, hər şeydən öncə, bir siyasi tarixdir. Sovet imperiyasında slavyanlardan sonra kəmiyyətcə ikinci olan türklərə qarşı yönəlmiş dil, əlifba, mədəniyyət pərdəli manqurtlaşdırma, soyqırım və emiqrasiya siyasəti, Türkiyə Cümhuriyyətinin türk xalqları ilə birgə türk xalqlarının birliyinin konsepsiyası olacaq dil, əlifba, mədəniyyət siyasəti və Avropanın (konkret olaraq Fransa, Almaniya və İngiltərənin) Şərqə və Sovetlərə qarşı strategiyasının müəyyənləşməsində Birinci Türkoloji qurultayın müstəsna rolu və əhəmiyyəti var". " 100-dən artıq iştirakçının, seçmə alim və mütəfəkkirin əksəriyyətinin həbsi və fiziki məhvi ilə bitən bu qurultay yaxın tarixin ən böyük ziyalı - alim soyqırım sənədidir" (Nərimanoğlu- Ağakişiyev, 2006:4).

Sovet hökuməti nə 20-ci illərdə, nə də 30-cu illərin ortalarına qədər Azərbaycanda, ümumən Sovetlər Birliyinin tərkibinə daxil edilmiş digər türk respublikalarında ərəb əlifbasından kirilə keçmək ideyasını gerçəkləşdirmək gücündə və fikrində deyildi. Belə ki, 1923-1939-cu illər arası SSRİ-də 50 dil latınlaşmaya məruz qaldı. 1936-cı ildən çar Rusiyası zamanında başlanılan məqsədyönlü ruslaşdırma siyasətinin son mərhələsi baş verdi. SSRİ-nin bütün dillərinin kiril əlifbasına keçid kompaniyasına start verildi (Xürrəmqızı, 2016:20). Qeyri- slavyan mənşəli xalqları, xüsusilə türkləri sıxışdırmaq strategiyası götürən Moskvanın, bir tərəfdən türk dillərini (və xalqlarnı) qarşılıqlı əlaqələrdən məhrum etmək, digər tərəfdən, həmin xalqlar arasmda rus dilini yaymaq siyasətinin ən açıq təzahürü 1929-cu ildə qəbul edilmiş latın əlifbasının on il sonra qəflətən kirillə əvəz edilməsi oldu. "1940-cı il üçün gürcü, erməni və idiş dillərindən (həmçinin latış, fin, eston, litva) başqa bütün dillərin əlifbası məcburi şəkildə kiril qrafikasına keçirildi." (Xürrəmqızı, 2016:20). Dövlət idarələrində rus dilinin mövqeyinin gücləndirilməsi, Azərbaycan KP MK rəhbərliyində azərbaycanlı olmayan və

yerli xalqın dilini nəinki bilməyən, hətta ona həqarətlə baxan kadrların sayının artması, dövlət təhlükəsizlik orqanlarınm Azərbaycan ziyalısını kütləvi şəkildə «millətçilik»də təqsirləndirərək məhv etməsi, orta və ali təhsildə ruslaşdırma və s. dövlət dil siyasəti sahəsində demokratik mərhələnin bitib irtica mərhələsinin başlanması demək idi. 50-ci illərin ortalarına - Stalin rejiminin çökməsinə qədər davam edən bu mərhələdə dövlət dilinin: yüzilər boyu işlənmiş adı (türk dili, yaxud Azərbaycan türkcəsi) dəyişdirildi; ona ölkənin, dövlətin adı (Azərbaycaıı dili) verildi; elitar mövqeyi məhdudlaşdırıldı, digər sovet türk respublikalarının dövlət dilləri bir-biri ilə təmasdan, qarşdıqlı əlaqələrdənı məhrum edildi - rus dili nəinki qeyri-türkdilli, hətta türkdilli xalqlarla iünsiyyətdə yeganə vasitəyə çevrildi və

s. Bu mərhələdə dövlət dil siyasətinin xarakterini göstərən əlamətlərdən biri də o idi ki, I Türkoloji Qurultaym qərarları üzərinə qalın qara pərdə salındı. Yuxarıda qeyd etdiyimiz kimi həmin qurultayda iştirak etmiş türkoloqlarm, demək olar ki, hamısı repressiyaya məruz qaldı və «türk» sözünün işlədilməsi qadağan edildi. Azərbaycan türkcəsinə (və Azərbaycan türklərinə) qarşı yerli rəhbərlərin əli ilə törədilən repressiyalarm ideoloji aspekti daha amansız idi. Məhz 30-cu illərdə Azərbaycan xalqının etnik mənşəyi (etnogenezisi) onun dil mənşəyinə (qlottogenezinə) qarşı qoyuldu və belə bir antihumanist (aqressiv) ideya formalaşqdırıldı ki,

guya Azərbaycan xalqı İran mənşəli etnosların inteqrasiysı əsasında təşəkkül tapmış, sonradan (XI-XIII əsrlərdə) Azərbaycana yürüş etmiş səlcuq türklərinin bəsit dilini qəbul etmişdir. (Əhmədova, 2010:43).

Bütünlükdə sovet hakimiyyətinin ilk on illiyində dövlət idarələrində Azərbaycan dilinin nüfuzu yüksəldilsə də, sonrakı iyirmi ildə mərkəzin gerçəkləşdirdiy imperiya siyasətinin rus dilinə qazandırdığı yersiz "nüfuz" xalqm hüququnu pozmaqla milli dəyərlər ən ağır zərbə idi.

**Sovet "ailə modeli": "hüquq bərabərliyi" və təzadlar**

Hər bir millətin dili və dini, mədəni-mənəvi irsi onun dəyərlər sistemini özündə ehtiva edir. Totalitar rejim xalqların milli-mənəvi dəyərlərinə müxtəlif formalarda, məhv etməyə çalışırdı. Məqsədli şəkildə kənar ideyaları və adətləri cəmiyyətə nüfuz etdirməklə onları milli adət-ənənələrin nüvəsinə daxil edir və özəyi dağıtmağa çalışırdılar. Tarixin təhrif edilərək gənclərə ötürülməsi və tarixi yaddaşın silinməsi prosesinə başlanılmışdı. Bunun üçün insanların beynini işğal etmək lazım idi. Total rejimdə məktəblər bu niyyətin gerçəkləşməsində geniş meydana çevrilməkdə idi. Belə ki, ilk gündən məktəblərdə dərs alan gənclərin vətənpərvər ruhda yetişməməsi üçün rejim öz gizli niyyətlərini realaşdırmağa başladı.

*Nikah və ailə ilə bağlı de-fakto və de-yure*

Ailə dövlətin və cəmiyyətin əsasını təşkil edən ən mühüm institutlarından biri olduğu kimi hər bir dövlətdə ailə hüquqlarının həyata keçirilməsi və müdafiəsi qanunvericiklə müəyyənləşir. Nikah könüllü razılıq əsasında bağlanılır. Qarşıda duran əsas məsələlərdən biri erkən nikahların qarşısının alınması idi. Azərbaycan SSR-də qadının nikah yaşı xüsusi qanunvericilik aktına görə 16 yaş təsdiq edilmişdir [AR MDA: f.379, iş 1039, v.1; AR MDA: f.379, siy.1, iş 1101, 37 v.20-27].

Lakin real həyatda bu hüquqi normaları tətbiq etmək çox çətin idi. Onların pozulmasına qarşı mübarizə mexanizmi yox dərəcəsində idi. 1926-cı ilədək bu məsələ ətrafında mətbuatda qızğın müzakirələr aparılırdı. Ayna Sultanova 20 avqust 1926-cı ildə çap etdirdiyi məqaləsində nikah yaşı ilə bağlı fikirləri elmi cəhətdən əsaslandırmış, nikaha daxil olan oğlan və qızların fiziki yetişkənliyi- nin nə dərəcədə olması və insan orqanizminə təsirini ətraflı şərh etmişdir. O da Xalq Səhiyyə Komissarlığı nəzdindəki Tibbi Şuranın verdiyi rəyə əsaslanaraq Xalq Ədliyyə Komissarlığının yaş həddinin azaldılması haqqındakı fikirlərinə qəti etiraz etmişdir. Qəzetin növbəti saylarında bu məqalə prioritet məsələ kimi geniş müzakirə obyektinə çevrilmişdir [Kommunist qəz., 1926:28 sentyabr; Бакинский рабочий, 1926:9,10, 20, 26, 28, 30 сентября, 5 ноября].

Kişi və qadınların de-fakto bərabərliyi ilk öncə qadının de-yure – hüquqi bərabərliyindən başlanır və «sosialist inqilabı»nın Azərbaycan qadınına verdiyi hüquqi azadlıq qısa zaman kəsiyində tam reallaşa bilməzdi. Mövcud sosial-ictimai münasibətlərin keçmişə bağlılığı hələ çox güclü idi. Qadınlar bəzən rəsmi şəkildə ərindən öz arzusu ilə boşanmaq istədikdə şəriət qanunlarına görə boşanma ala bilməzsə, təkrar 2-ci nikaha daxil ola bilmir və çıxılmaz vəziyyətə düşürdü (CM-nın 96

«a» maddəsinə görə). Çünki şəriətə görə kişilərdən fərqli olaraq qadınların boşanma hüququ yox idi. Azərbaycan SSR MİK bu məsələnin qanuni yolla həll edilməsini Xalq Ədliyyə Komissarlığına tapşırmışdı.

Həmin dövr aşağıdakı məişət təzahürləri ASSR-də cinayət qanunvericiliyinə əsasən sosial-təhlükəli cinayətlər hesab edilirdi:

Çoxarvadlılıq, qadının aldadılaraq satış məqsədilə qaçırılması, onların pritonlara yerləşdirilməsi, istismar və digər məqsədlərlə istifadəsi; qadının razılığı olmadan nikah məqsədilə qaçırılması; nikah yaşı çatmayanlarla nikaha girmə; nikah yaşı çatmadıqda və ya qanuni nikah ləğv edilmədiyi halda din xadimlərinin şəriətlə nikah bağlaması; qadının azadlığa çıxmaq və öz hüquqlarının bərpası yolunda mübarizə zamanı öldürülməsi; nikah yaşı çatmayanların nişanlanması və

s. (MİK-nın 10 iyun 1923-cü il, 15 noyabr 1924-cü il, 26 dekabr 1925, 9 fevral 1926-cı il; 15 no- yabr 1924 qətnaməsi. /A.M №7, m.295-23; A.M.7 m.295-23; A.M.№12,m.30; A.M.8.12m.308-24; A.M.m.308, №12-20; A.M. 812, m.308-24).

Dövri mətbuatda qadın zorakılığı və qadın fahişəliyi ilə bağlı ciddi müzakirələr davam edirdi. Məsələn, Boqdanovun « Бакинский рабочий » qəzetinin 1926-cı il 20 sentyabr və 4 noyabr tarixli saylarında dərc edilmiş «Рынок разврата» və «Два примера о проституции » [Богданов, 1926 ] məqalələrində Bakı dəniz sahilində ucqarlardan gələn və «fahişəliklə» məşğul olan qadınların çoxalması göstərilirdi. Müəllif günahsız qurbanların belə bazara düşmə səbəblərinə toxunur və diqqəti üzdə görünməyən bir cəhətə yönəldirdi: «Sovet hökuməti fahişəliyin qarşısının alınması məqsədilə bütün mübarizə formalarından istifadə edir. Artıq o istehlakçıya (müştəriyə) qarşı mübarizəyə başlamalıdır».

Əslində nə baş verirdi? Sovet hökuməti Azərbaycan **milli ailə modelini** dağıdırdı. Ərlərinin, ailə başçılarının razılığı olmadan qadın və qızları təhsil almaq adı ilə Bakıya gətirir (fikrimizcə bu proses tədricən uyğunlaşma şəraitində baş verməli idi-G.İ.), onları lazımı təyinatı yerlərdə yerləşdirə bilmir, zəruri gündəlik yaşam ehtiyacları ödənməyən ucqar kəndlərdən gələn çarəsiz qız və qadınlar gecələri küçələrdə, dəniz sahilində keçirməyə məcbur qalıb pozulurdular. Deməli, dolayısı yolla istehlakçının özü elə məhz sovet hökuməti idi. Növbəti mərhələdə ailə başçıları tərəfindən "namusunu təmizləmək" məqsədilə öldürülən bu qadınların ərləri "qolçomaq" damğası ilə törətdikləri cinayətə görə güllələnirdilər. İkinci bir halda ictimai rəy köhnə mövqelərdən birdən – birə uzaqlaşmır, adət-ənənələrin möhkəm kök saldığı cəmiyyət ictimai işlərə meyl edən qadınlara qarşı sərt münasibətini dəyişmək istəmirdi. Məsələn, 1931-ci ildə seçkiqabağı kompaniyada fəal qadınların öldürülməsi ilə bağlı göstərilir ki, Balakəndə Firdost İsmayılqızı sovet ictimai işində və seçkiqabağı kompaniyada iştirakına görə «qolçomaq» əri tərəfindən öldürülmüşdü [AR MDA: f.379, siy.1, iş 3667, v.1-2]. Nəticədə ailədə kimsəsiz qalan uşaqlar yaxşı halda müxtəlif şəhərlərdə yetimlər evlərinə göndərilir və beynəlmiləl tərbiyə alırdılar. Onların Azərbaycan milli-mənəvi dəyərlərini hansı formada daşıyacağı məlum deyildi.

Hökumətin xüsusi qərarına əsasən 8 sentyabr 1923-cü ildən sonra bağlanan dini nikahlar heç bir hüquqi qüvvə daşımırdı. Kəbin aktının etibarlılığı üçün nikaha daxil olanların imzası tələb edilmir, sadəcə olaraq göstərilən şəraiti təsdiq edən molla və şahidlərin imzası kifayət edir. Qəbul edilmiş qərara əsasən kəbin aktının və mehrin etibarlılığı 1927-ci ilə qədər qüvvəsini saxlayırdı. Bütün cəhdlərə baxmayaraq rejim bu məsələlərdə öz istəklərinə nail ola bilmirdi. Köhnə adət- ənənələr,

ictimai şüur problemlərin qalmasını şərtləndirirdi. 1926-cı ildə xalq məhkəmələrində qa- dınlarla bağlı 1269 işə baxılmışdır ki, onlardan 355-i boşanmalar haqqında, 84-ü əmlak iddiaları, 15-i kəbin pulları haqqında, 382-si aliment alınması haqqında, 433-ü isə digər məsələlərlə baglı idi. [AR MDA: f.379, siy.1, iş 2907, v.27].

Qadının həyat və hüquqi statusunun yaxşılaşdırılması məqsədi ilə hazırlanmış qanun layihələrinin birində aşağıdakı təkliflər irəli sürülürdü [AR MDA: f.379, siy.1, iş 1509, v.10]:

1. Kişi ilə qadın nikaha daxil olduqda alimentin mahiyyəti (alınması) haqqında xəbərdarlıq edilir, yalan məlumatlar üçün cinayət məsuliyyətinə cəlb edilir.
2. Bütün hüquqi dəyişikliklər, ər və arvadın familiyalarının dəyişməsi və ya birləşdirilməsi qadının sərbəst razılığından asılıdır (maddə 26-29).
3. Nikaha daxil olan cütlüklərin ümumi əmlak üzərində sahiblik və istifadə hüququ qadının və ərin birinin o birinə nisbətən hüquqlarının azalması istiqamətində olmamalıdır; qarşılıqlı şəkildə birgə nikahda olduqları müddətdə qadının uşaqlara baxması, ev işləri ilə məşğul olması ərin vəsait qazanmaq üçün gördüyü işlə bərabər tutulur (maddə 30-31).
4. Ər və arvad bir-birinə maddi cəhətdən kömək etməlidir. Aliment təkcə əmək qabiliyyəti olmadığı halda deyil, həm də işsizliyə görə də verilir (maddə 32).
5. Dul qalmış arvad ərin miras qalmış əmlakından pay almaq hüququna malikdir. Əgər vəsiyyətnamə mövcuddursa, varislər arasında ödəmə mütənasib qaydada aparılmalı, alınan pay vərəsəlik üçün nəzərdə tutulan yekun paydan çox olmamalıdır (maddə 32, əlavə 1).
6. Aylıq alimentin verilməsi zamanı aliment verənin qərarına əsasən 6 aylıq məbləğ qabaqcadan ödənilə bilər. Qüvvədə olan qanun yalnız əmək gəliri ilə dolanan və aztavanalı kəndlilərə aid edilmir (maddə 32, əlavə 2).
7. Əkinçilik təsərrüfatında çalışan əməkçilərdən aliment alınan zaman təkcə ümumi əmlakdan tutulan payla kifayətlənmək olmaz, cavabdeh ümumi təsərrüfatda işləyirsə və torpağın ayrılmasına, mal-qaraya toxuna bilmirsə, onda puldan əlavə təsərrüfat məhsullarından aliment verilməlidir (maddə 33);

8. Nikah pozulduqdan sonra alimentin alınması nikaha qədər və nikah pozulduğu gündən etibarən bir il ərzində əmək qabiliyyətini itirən keçmiş ər-arvad və həmçinin nikah pozulduğu gündən etibarən bir il müddətində işsiz olan keçmiş ər-arvad aliment almaq hüququna malikdir. (maddə 36).
9. Valideynlər və uşaqlar arasında qarşılıqlı münasibət uşaqların marağına xidmət edir və bu həm əməkçi kollektivlərin, həm də dövlətin qarşısına qoyduğu əsas məqsəd və vəzifələrdən biridir. Valideynlərin fəaliyyəti qəyyumluq orqanlarının nəzarətində olur və onlar məhkəmənin qərarı ilə uşaqların onlardan alınması ilə valideynlik hüququndan məhrum edilə bilərlər, amma bu onları uşaqların saxlanması üçün gələcək xərclərdən və onların tərbiyələndirilməsindən azad etmir (maddə 45 və 64).
10. Uşaqların saxlanılması məsuliyyəti hər iki valideyn üçün eynidir. Uşaqların yetkinlik yaşına çatana qədər hər iki valideyn onların bütün maddi, mənəvi ehtiyaclarını ödəməlidirlər. Burada tərəflərdən birinin maddi vəziyyəti də nəzərə alınmalıdır (maddə 55 və 61).
11. Sığorta və ya sosial təminat iddiadan imtina etməyə əsas vermir, valideynlərin ehtiyacı məsələsini və onlara vəsaitin ayrılması məhkəmənin nəzərinə çatdırılır (Maddə 62 və layihəyə əlavə).
12. Yetkinlik yaşına çatmamış bacı və qardaşlar əsaslı olaraq valideynlərdən onlara miras ala bilmədikdə, kifayət qədər imkanı olan bacı və qardaşlardan aliment ala bilərlər (maddə 66).
13. Ehtiyacı olan baba və nənə imkanı olan nəvələrindən aliment ala bilər (maddə 67).
14. Ana və uşağın maraqlarının müdafiəsi baxımından nadir hallarda təsadüf edilsə də, ata uşaqdan imtina edərsə, uşağın saxlanması üçün atadan vəsait alınır; belə hallarda qadın VVAQ orqanlarına müraciət etməklə uşağın atasının kimliyini ərizə yazmaqla bildirir... (maddə 41, 43).
15. Valideynlər haqqında qeydlər düzgün verilmədikdə, maraqlı şəxs atalığı və ya analığı sübut və ya inkar etmək üçün məhkəməyə müraciət edə bilər (maddə 39).
16. Övladlığa götürmə zamanı övladlığa götürülənin yaşı 1-dən az olmamalıdır, övladlığa götürülən uşaq doğma uşaqlarla eyni hüquqa malikdir (maddə 76, 74).

17. Qadınlara hüquqi kömək ümumi qaydada aparılır [AR MDA: f.379, siy.1, iş 1422, v.11-

14].

Azərbaycan **Respublikasında ailə-nikah, qəyyumluq** və vətəndaş vəziyyəti ilə bağlı

məsələlərə dəqiq aydınlıq gətirilməsi ilə bağlı Azərbaycan SSR MİK vətəndaşların yaş həddinin təyin edilməsində həkim-ekspertlərin və icraiyyə komitələrinin iştirakı barədə VM-nın 222 maddəsində dəyişikliklər etmək haqqında 19 dekabr 1929-cu ildə xüsusi qətnamə qəbul olunur [AR MDA: f.379, siy.1, iş 2907, v.2]. 4 sentyabr 1929-cu ildə Azərbaycan SSR MİK və XKS tərəfindən Azərbaycan SSR qanunlar məcəlləsində «Ailə, nikah və qəyyumluq haqqında qanun»a yeni əlavələr edilir: a) uşaqların valideynləri öldükdə, b) valideynlərin uşaqları saxlamağa kifayət qədər vəsaiti olmadığı hallarda yetkinlik yaşı çatmayan və ehtiyacı, əmək qabiliyyəti olmayan uşaqların saxlanmasında ögey ana və ögey ata da məsuliyyət daşıyır:

Ögey ata və ya ana əgər uşaq valideyni ölənə qədər onların öhdəsində olarsa, göstərilən «b» maddəsinin qüvvəyə mindiyi müddətədək onlar bu məsuliyyəti daşımağa məcburdur. Ögey oğul və ya qız 10 ildən artıq müddətdə ögey ata və ya ananın himayəsi altında yaşadığı halda ögey ata və ya ananın ehtiyacı və ya əmək qabiliyyəti olmadıqda onları saxlamağa borcludurlar [AR MDA: f.379, siy.1, iş 2720,1,v.1-2; AR MDA: f.379, siy.1, iş 2801,v.1-2].

Bu dövr qəbul edilmiş qərar, sərəncam, fərman və qanunların çox böyük əksəriyyəti kağız üzərində qalırdı. Çox vaxt bu rəsmi sənəd və hüquqi normalar RSFSR-dəki müvafiq sənədlərin mexaniki olaraq Azərbaycana «köçürülməsi» təəssüratı yaradırdı. Məsələn, elə bu qərarda nəzərdə tutulurdu ki, «…Anaların və uşaqların mühafizəsinin kəndlərdə daha geniş təşkili üçün kəndli qadınların hamiləliyi ilə bağlı sığorta haqqında təşkilatlarla qarşılıqlı məsələ qaldırılıb işlənilsin…».

Lakin həyat reallıqları hamar kağız üzərində qalan pafoslu qərarlardan kəskin şəkildə fərqlənirdi. Elə təkcə respublika rəhbərlərinin adına yazılmış şikayət ərizələrindən məlum olur ki, qadınlara qarşı həm ayrı-ayrı şəxslər, həm də dövlət bürokratiyası tərəfindən törədilən qanunsuzluqlar və özbaşınalıqlar geniş miqyas almışdı [AR MDA: f.57, siy.1, iş 1556]. Qadınların tarixən əldə etdiyi siyasi təcrübəsinin xüsusiyyətlərinin çağdaş siyasi proseslərdə gender bərabərsizliyinin mənbəyi olduğunu aşkara çıxarırdı. Hətta rəsmi kommunist mətbuatı (məs.«Bakinskiy raboçiy» 13.X.1926) belə etiraf edirdi ki, bəzi uğurlara baxmayaraq tədbirlərin çoxu kağız üzərində qalırdı. Yəni, de-fakto və de-yure bir-birini təsdiqləmirdi.

**Sovet dövlət siyasətində «şəxsiyyətin hərtərəfli inkişafı» və milli-mənəvi dəyərlər**

Məlumdur ki, insan amili və onun cəmiyyətdə rolu sosial-iqtisadi inkişafı gücləndirmək üçün əsas cəhətlərdən biridir. İnqilabi dəyişikliklərin yaradıcısı olan insan praktikada formalaşır və ictimai tərəqqinin hərəkətverici qüvvəsi kimi çıxış edir. Tərəqqinin son məqsədinə çatmaq üçün siyasi və psixoloji cəhətdən yetişmiş kamil şəxsiyyətlərin olmasına ehtiyac duyulur. Lakin inzibati amirlik prinsipi ilə idarə olunan totalitar sovet rejimində ictimai həyat da, iqtisadiyyat da dövlətin inhisarında olduğundan «şəxsiyyətin hərtərəfli inkişafı» kölgədə qalırdı. Verilən siyasi qərarlara müvafiq aparılan tənzimləmələr isə zamanın mövcud obyektiv şəraitinin tələbləri ilə üst-üstə düşmür, sovet totalitar rejiminin təbliğ etdiyi dəyərlər və məqsədlər real həyatla uzlaşmırdı. Bu isə cəmiyyətin üzvlərinin rejimə qarşı gizli və ya açıq şəkildə etirazına, müqavimət göstərməsinə gətirib çıxarırdı.

Belə bir rejimdə sosialist həyat tərzinin formalaşması prosesində insanın bir şəxsiyyət kimi rolu və yeri nədən ibarət idi və bu proses milli-mənəvi dəyərlərin formalaşmasını özündə ehtiva edirdimi? Məktəblərin, fabrik və zavodların, dövlət idarələrinin qapısını insanların üzünə açan sovet hakimiyyəti onlara paradoksallıqla dolu sənayeləşmə və kollektivləşmə dövrünü yaşatdı. Kişi və qadın bərabərliyi öncə qadının hüquqi bərabərliyindən başlanır və sosialist inqilabının Azərbaycan qadınına verdiyi hüquqi azadlıq qısa zaman kəsiyində reallaşa bilməzdi. Keçmiş ictimai mü- nasibətlərin çox güclü qalıqlarını özündə yaşadan quruluş cəmiyyətdəki dəyişikliklərə tez bir zamanda adaptasiya edə bilmədiyindən qadının şəxsiyyət kimi azadlığına sanki düşmən kəsilmişdi. Qadının ailədəki funksiyasında baş verən dəyişiklər, onun cəmiyyətdə rolunun artması, ailə qay- ğılarının yerinə yetirilməsi, əmək fəaliyyətində cəlb olunduğu ağır fiziki iş əslində qadın şəxsiyyətinin yeni sosialist istismar formasına gətirib çıxarırdı. Məişətdə ağır fiziki işlə yüklənmiş qadının uşağın sağlam böyüməsinə və təlim-tərbiyəsinə ayrılacaq vaxtın əmək prosesinə sərf etməsi üzündən qadın gördüyü fiziki işdən zövq almırdı. Sovet cəmiyyətinin totalitar rejim olduğunu dərk edən Azərbaycanın «şəxsiyyət» kimi inkişaf etmiş qadınları ictimai-siyasi həyatda baş verən dəyişiklikləri düzgün qiymətləndirirdilər. Məlumdur ki, Azərbaycan mental adətlərinə görə uşağı olan qadın 40 gün müddətində qorunmalıdır. Bu min illik xalq təbabətinə və Quran ayələrində öz əksini tapmış dərin elmi əsaslara söykənirdi. Amma sovet amirlik aparatı «Qəhrəmanlıq» anlayışı altında qul əməyi kimi istismar edilən kolxozçu-pambıqçı, tütünçü qadınların 3 gündən sonra tarlalara sürüklənməsi həmin dövrdə əslində qadına verilmiş «azadlığın» görünməyən tərəfi, eləcə də milli adət-ənənələrə, xüsusilə də "ailə modelinə" vurlan zərbə idi.

İstənilən yeniliyin formal xarakter daşıması, insanların hakimiyyətə nəzarət etmək imkanın olmaması, rejimə qarşı müxalif olan hərəkatların, ideyaların meydana çıxmasına şərait yaratdı. İcti-mai təcrübəyə yiyələnməklə inkişaf prosesində ictimailəşmiş belə şəxsiyyətlər kimi Azərbaycanın maarifçi qadınları da repressiya dövrünü yaşadılar.

Repressiya dövrünün Azərbaycan ailəsinə, uşaqlarına və bütövlükdə Azərbaycan millətinə vurduğu fiziki və mənəvi zərbələri ayrı-ayrı ictimai xadimlərin fəaliyyətində aydın görmək olar [Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, 2005; Bünyadov, 1990:28 sentyabr; Əliyev, 1988:3-7; Gəncəli, 1982, 1988, 1989, 1990, 1991; Hüseynzadə, 1989; Kazımova, 2007].

1937-1938-ci illərdə Azərbaycanda repressiyaya məruz qalanlar kimlər idi?

Əvvəla, «xalq düşmənləri», arvadları və ailə üzvləri. «Xalq düşmən»ləri adı altında güllənən şəxslərin çox böyük əksəriyyəti Azərbaycan xalqının istedadlı, peşəkar səviyyədə yetişmiş ictimai-siyasi xadimləri, inqilabçı-maarifçi demokratları idi. Milli məfkurəyə qarşı qoyulan qadağalara, tabe olmayan, sənayeləşmə və kollektivləşmə dövrünün paradoksallıqlarına etiraz edən rəhbər vəzifəli şəxslərin əksəriyyətinin savadlı olması zamanın doğurduğu tələblərdən idi. Onların hər biri xalqın milli mənlik şüurunun oyanmasına, maariflənməsinə, vətəndaşlıq hüquqlarından maksimal istifadə edilməsinə çalışırdılar.

İkincisi, 1918-1920-ci illərdə AXC-nin tərəfdarları və fəalları olmuş şəxslər siyasi

əqidələrinə görə həbs edildilər, güllələndilər. Hər biri azad fikirli, inqilabçı ruhda olan bu insanlar

«müstəqilliyi və istiqlalı» ideal kimi qəbul etmişdilər. Bütün təbii və mənəvi sərvətləri ilə işğal edilmiş Azərbaycanın mövcud hakimiyyət quruluşu üçün onların fəaliyyətdə olması real təhlükə idi. Üçüncüsü, o şəxslər idi ki, onlar sovet quruculuğunun fəalları idi və bu rejimin hakimiyyətə gəlməsi uğrunda mübarizə aparmışdılar. Onlar bir çox məsələlərin həllində eyni bir müstəviyə gələ bilməsələr də Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında iştirak etdilər və bu hakimiyyəti alqışladılar. Lakin qeyd edildiyi kimi Sovetlərin hakimiyyətə gəlişi zahiri görünüşcə cəmiyyət üzvlərinin çox qisminin niyyətləri ilə üst-üstə düşdüsə də, bu görüntü çox çəkmədi: bu dahi şəxsiy- yətlərin hər biri başa düşdü ki, sovet imperiyası məkanında millət və vətən anlayışları bir pillə də geri atıldı. «Müstəqilliyin» formal xarakteri, azadlığın millətin deyil, ayrı-ayrı şəxsiyyətlərin özülü üzərində qurulması və s. bu kimi paradoksallıqlar onları artıq bir müstəvidə birləşdirdi. Mövcud totalitar rejimin

verdiyi bəzi müsbət cəhətlərdən istifadə etməklə maarifin inkişafına, pedaqoji kadr- ların artırılmasına, əhalinin siyasi cəhətdən savadlanmasına çalışdılar və bu prosesdə özləri də

yetkinləşərək kamil şəxsiyyətlərə çevrildilər.

Sovet rejimi onları məsul rəhbər vəzifələrdə oturtmaqla, ictimai işləri tapşırmaqla sanki

«çox irəli buraxmışdı». Yüksək intellektual potensiala və siyasi təcrübəyə malik olan bu insanların öz arzu və istəklərini reallaşdırmaq üçün yetişəcək zaman kifayət idi. Sözsüz ki, imperiyanın ikinci dərəcəli xalqlarından sayılan Azərbaycanda sovet hakimiyyətinin arzu və istəkləri bu şəxslərin arzu və istəkləri ilə üst-üstə düşmürdü. İmperiyanın yaşaması naminə onların məhvi labüd idi.

Dördüncüsü, məhz o insanlar idi ki, milli burjuaziya nümayəndələrinin övladları idilər. Fərdin şəxsiyyətə çevrilməsi prosesində onların hər biri artıq yetkinləşir və inkişaf edirdilər.

Öz fəaliyyətləri zamanı əldə etdikləri təcrübə, yiyələndikləri biliklər daxili tələbatlarının bilavasitə ödənilməsinə istiqamətlənir.

***Nümunə 1***: Ayna Sultanova nəzəri cəhətdən savadını artırmaq üçün Moskvada Qırmızı Professorlar İnstitutunun fəlsəfə şöbəsinə daxil olur.1925-ci ilin sentyabrında XMK-nın kollegiya- sına seçilir. AK (b) P MK-nın qərarı ilə onu məsul partiya işinə təyin edirlər. 1933-cü ildə isə o, Azərbaycan Xalq Maarif Komissarının müavini, MİK-nın Rəyasət Heyətinin 7 mart 1934-cü il tarixli qərarı ilə Ayna Sultanova bu vəzifədən azad edilir, Xalq Ədliyyə Komissarının müavini və Ali Məhkəmənin sədri vəzifəsinə təyin edilir [AR MDA: f.379, siy.1, iş 5332, v. 1, 5, 9, 10, 11, 29]. Eyni zamanda o, Cənubi Qafqaz Həmkarlar İttifaqı Şurası mədəniyyət bölməsinin müdiri və ÜİK

(b) P Cənubi Qafqaz Ölkə Komitəsində qadınlar bölməsinin müdiri, kütləvi təşviqat şöbə müdirinin müavini vəzifəsində çalışmışdır. O, müsəlman Şərqində ali məktəb müəllimliyindən Azərbaycan SSR Ədliyyə Naziri vəzifəsinə yüksələn ilk qadın idi [*Gəncəli, 1989:14;* Sultanova, 1974:12] və ölüm hökmünün əleyhinə idi. Sədaqətlə xidmət eddiyi rejim isə onu istintaqa cəlb etdi. Bağırovun və Qavrilovun iştirakı ilə aparılan həmin istintaq Sultanova üçün acınacaqlı oldu: 1938-ci ildə digər qadınlar kimi o da güllələndi.

Şəxsiyyət olaraq cəmiyyətin siyasi və ideoloji həyatına daxil olan zaman onlar ictimai proseslərə iştirak etməklə yaşayışlarını dəyişməyə başlayır.

**Nümunə 2**: Gülarə Köylü qızı Qədirbəyova 1923-cü ildə Qəza qadınlar şöbəsinin müdiri, 1927-ci ildə Az. MİK Qadınlar Şöbəsinin müdiri vəzifəsinə irəli çəkilir. 1930-37-ci illərdə Əli Bayramov adına Mərkəzi Qadınlar Klubunun direktoru, Azərbaycan Xalq Maarif Komisarlığı kütləvi mədəni-maarif İşləri şöbəsinin rəhbəri vəzifəsində çalışlmış, respublikanın tərəqqisində əvəzsiz xidmətlər göstərmişdir [AR MDA: f.57, siy.1, iş 1016]. 1931-32-ci illərdə Azərbaycan KP(b) MK-da qadınlar arasında iş bölməsinə rəhbərlik etmişdir. 1931-ci ildə «Şərq» qadın jurnalına redaktor təyin olunmuşdur. Yüksək intellektual səviyyəsi, beynəlxalq hadisələrə yaxından bələd olması, siyasi cəhətdən savadlılığı, onun peşəkar jurnalist kimi fəaliyyətini davam etdirməsinə imkan vermişdir. Fəaliyyət dairəsinin mütəmadi olaraq genişləndirməklə, qadınların siyasi və ideoloji cəhətdən savadlanması üçün geniş təbliğatı işlər aparmışdır [İslamzadə, 1987]. Ziya Bün- yadovun arxiv sənədlərinə istinadən Gülarə Köylü qızı haqqında verdiyi məlumatdan məlum olur ki, o, 1938-ci ilin avqustun 8-də Təhlükəsizlik İdarəsinin verdiyi arayışa əsasən həbs edilmişdir. Həmin arayış Sabirabad RİK-nın keçmiş sədri Qasımov Mirzəməmməd və Həmid Sultanov tərəfindən verilmişdir. Gülarə Köylü qızını əksinqilabçı millətçi təşkilatın üzvü olmaqda, «milli kadrlardan» istifadə etməməsinə görə hökuməti ittiham edərək dövlət əleyhinə çıxışlar etməkdə və bu baxımdan Ruhulla Axunıdovu müdafiə etməkdə, eləcə də ərinin günahsız güllələnməsinə qarşı etiraz etməkdə, bir qrup müsavatçı yazıçılarla-Qurbanovla, Əhməd Cavad və Hüseyn Cavidlə (gülləniblər), Xavər Qarayeva, Tamara Salikova, Sənubər Əyyubova (məhkum olunublar), Xədicə Hüseynova ilə əlaqəsi olmaqda təqsirləndirirdilər. Əslində isə Gülarə Köylü qızının bu arayışdan əvvəl 1938-ci il iyulun 23-də həbs olunması üçün h-956 nömrəli order verilmiş, iyulun 27-də isə artıq həbsdə ola-ola onun həbs edilməsi barədə qərar verilmişdir [Bünyadov, 1990]. Şahid sifəti ilə Həşimzadə Bilqeyis, Həmid Sultanov və Mirzəməmməd Qasımovun ifadələri oxunmuş və o, bu ifadələri qətiyyətlə rədd etmişdir (yenə də dəyərlər sındırılır, eyni komana üzvlərini bir-birinə qarşı şərləməyə, yalan ifadə verməyə zorlayırları - İ.G.). İstintaqın gedişində onun kifayət qədər inkişaf etmiş adam olduğu, «Bir sarayın tarixi» kitabını şəxsən redaktə etməsi və kitabın müsavatçı ruhunda yazılması göstərilmiş və işə tikilmişdir. 1939-cu il yanvarın 20-də Qədirbəyova Gülarənin işi üzrə istintaqın bitməsi haqqında protokol və ittihamnamə tərtib edilir: «... O, Azərbaycan k (b) P MK rəhbərliyini hörmətdən salmaq üçün millətçi söhbətlərdə iştirak edir və əksinqilabı iş aparırdı, yəni Azərbaycan SSR CM 72-73-cü maddələri ilə cinayət məsuliyyəti daşıyırdı. Qədirbəyova özünü müqəssir bilmir … [Bünyadov, 1990; İslamzadə, 1987]. Gülarə Göylü qızı ictimai inkişaf prosesində artıq şəxsiyyətə çevrilmiş bir insan idi və cəmiyyətin üzvi kimi öz mövqeyini dərk edir və başa düşürdü ki, onun həbsxana divarları arasındakı fəaliyyəti bilavasitə iradəsinin təzahürü kimi təsdiqlənir, tətbiq edilən işgəncələr (əksər repressiyaya uğrayanlar

kimi) onu tutduğu mövqedən, əqidəsindən döndərməməlidir. Malik olduğu iradi keyfiyyətləri – müstəqilliyini, cəsarətini, mərdliyini, inadkarlığını son ana qədər itirməyən Gülarə Köylü qızı Azərbaycan xalqının qan yaddaşında hörmət və nüfuzunu şəxsiyyət kimi əbədi saxladı.

Şəxsiyyətin hərtərəfli inkişafı üçün əsas amillərdən biri onun **yaradıcılıq fəallığıd**ır. O,

«şəxsiyyətin inteqral xüsusiyyəti olub onun intellektual və motivasiya sahələrini özündə cəmləşdirir» [Алиева, 2002: 20]. Bu dövrün yaradıcı insanlarının hər biri yaşadıqları zamanın «mil- li məfkurəyə» qarşı qoyduğu qadağaya adaptasiya etməmiş, öz fəallıqlarını qoruyub saxlaya bilmişdilər. Yaradıcılıq səylərinin köməyi ilə ictimai təcrübənin mənimsənilməsi nəticəsində onlarda özünə məxsus fərdi xüsusiyyətlər təşəkkül tapmışdır. Bu isə onlara rejimin sərt ideoloji qaydalarına məhəl qoymadan özlərinə həyat yolunun və şəxsiyyətlərinin yaradıcısı kimi baxmağa imkan verirdi. Kamil şəxsiyyət kimi müəyyən həyat yoluna malik olmaq, yaranmış sosial-psixoloji şəraitdə bir şəxsiyyət kimi vətənin taleyinə biganə qala bilməmək isə totalitar rejimin tətbiq etdiyi dəyərlər və məqsədlərlə üst-üstə düşmədiyindən bu rejimdə onların məhvi labüd idi.

***Nümunə 3***: 30-cu illər ədəbi tənqidində **Ümmügülsü**n Cumhuriyyət dövründə yazmış olduğu şeirlərindən daha çox «Hicran» və «Bayrağım enərkən» şeirlərinə, xüsusən də M. Rəsul- zadəyə həsr etdiyi «bən» şeirinə görə «xalq düşməni», «sosializmin düşməni», «müsavatçı» kimi ittiham edilmişdir. Bu şeirlər 20-30-cu illərdə Türkiyədə, Azərbaycan siyasi mühacirləri arasında dillər əzbəri olmuşdu. M. Rəsulzadə mühacirətdə yazdığı əsərlərində onlardan xüsusi bəhs etmişdir [Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, 2005:418]. Ümmügülsüm 1937-ci ildə Bayıl həbsxanasında keçirtdiyi dəhşətli, əzablı günləri, mənəvi sarsıntıları «Qala xatirələrim» adlı yazıda ifadə etmişdir [Hüseynzadə, 1989:10-12]. Həbsxana divarları arasında müxtəlif fiziki cəza tədbirlərinə baxmayaraq o, yeganə azərbaycanlı şairədir ki, bolşevik rejimini ittiham edən şeirlər yazmağı dayandırmamışdır [Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, 2005:418]. «Xəzərə xitab» şeirində o, təkcə öz adından deyil, repressiyaya məruz qalan məhkumların adından günahsız mühakimə olunduqlarını, heç bir xəyanət etmədikləri halda özlərinin vətənə, istiqlaliyyətə qarşı yönəlmiş iyrənc bir xəyanətin qurbanına çevrildiklərini cəsarətlə söyləmişdir. Məhbəsdə fiziki işgəncələrə məruz qaldığı anda onun, bəzi kişilərdə belə az təsadüf olunan sonsuz dözüm, iradə, mə- tinlik göstərməsi vətən və xalq yolunda, öz əqidəsi və məsləki uğrunda fədai olduğuna bariz nümunədir:

Darmadağın eylə dalğalarınla Bizi dar divara alan qalanı

...Nəymiş təqsirimiz, neyləmişik biz?

Bunu sən sual et, mənim dilim yox...

Yaxın ailə üzvlərinin, xüsusilə də əmisi oğlu M. Rəsulzadənin ictimai-siyasi baxışları onun mübariz ruhda yetişməsinə, milli ideallar uğrunda mübarizəni, milli – mənəvi oyanışıvətənçilik ideyalarını təbliğ edən şeirlər yazmasına səbəb olmuşdur. AXC onun həyatında və yaradıcılığında silinməz iz buraxmışdır.

Özünüdərketmənin təşəkkülü bilavasitə fərdin şəxsiyyətə çevrilməsi prosesində baş verir. Psixi inkişafın və şəxsiyyətin formalaşması məsələləri də bu prosesdə öndə durur: «Psixikanın yüksək səviyyəsi fərdin öz mədəni dünyasını yaratmaqla meydana gəlir, həmin dünyanın inikas etdirmək zərurətindən yaranır və öz növbəsində mədəni və təbii aləmi yeni keyfiyyətdə dərk edərək dəyişməsinə səbəb olur», «məhz şəxsiyyət özünün potensial imkanlarını dərk etməklə özünə həyat statusu qazana bilər» [Əliyev-Əliyeva-Cabbarov-Mustafayev, 1988: 3,13]. Repressiyaya məruz qalan insanların hər biri isə özlərinin mədəni dünyasını yaratdılar. Şəxsiyyətlərinin özünügerçəkləş- dirməsinin belə təzahürü yaşadıqları zamanda sərt totalitar rejimin norma və qanunları ilə bir araya sığmadığından onlar məhv edildilər. Sağ qalanlar isə cəmiyyətin onlarla ünsiyyətdə saxladığı məsafələrdən, ögey münasibətlərdən, yersiz tənə və qınaqlardan, «iş» qapılarının üzlərinə bağlılığından dərin psixoloji sarsıntılar keçirdilər, bir çoxları isə mənən sındılar. Bu isə bir neçə onilliklər davam etdi.

***Nümunə 4***: AMEA Əlyazmalar İnstitutundakı 18-ci fondda Gülsüm Nərimanovaya məxsus sənədləri (150 sənəd) araşdırarkən sovet amirlik sisteminin rus olmayan xalqın fəallığından kifayət qədər bəhrələnsə də, onları yetərincə qiymətləndirməməsi, mənəvi və maddi sıxıntılara məruz qoyması, qürurlarının sındırılması ilə rastlaşdıq. Bütün ömrünü müxtəlif formalarda (bu o qədər çoxşaxəlidir ki, ayrıca bir tədqiqatın mövzusudur – G. İ.) hakim rus millətinə xidmətdə keçirən, yeganə övladını imperiya torpaqlarının qorunmasına qurban verən, böyük zəhmət hesabına uşaq bağçalarını yaradan, bir sıra elmi məqalələrin müəllifi olan ictimai dövlət xadimi, Antifaşist Qadın Komitəsinin fəal işçisi, Moskva vilayəti Himayəçilər Şurasının üzvü, xeriyyəçi bir ana… sovet dövlətinə xidməti vəzifə borcunu yerinə yetirərkən itirilmiş səhhətinin müalicəsinə görə pəhriz yeməkləri üçün Kremlin yeməkxanasından istifadə hüququnun bərpa edilməsi məqsədilə SSRİ Ali Sovetinin sədri Şvernikə 3 dəfə yazılı müraciət edir. Müraciətdə 20 il müddətində hər şeyinin «oğur-landığını» qeyd edən müəllif hipertoniyadan əziyyət çəkdiyi üçün Moskva ətrafında 6 kv. metrlik bir otağın verilməsini və bütün bu xahişləri özünün yazdığı kimi utana-utana etdiyi göstərilir. Cavabı bəlli olmayan bu müraciətin səbəbləri məzarı belə bilinməyən Gülsüm xanım şəxsiyyətinə, Nəriman

və Nəcəf Nərimanovların ruhuna qarşı hörmətsizlikdir [AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş: 116,120,151,158,167,186].

**Nəticə**

Beləliklə, 1937-1938-ci illər Azərbaycan xalqı sovet cəmiyyətinin ən paradoksal hallarını yaşadı: bir tərəfdən insanlara söz, əqidə, din azadlığı verildi, o biri tərəfdən insanlar düz sözə, saf əqidəyə, təmiz vicdana görə həbs edildi, deportasiya olundu, güllələndi; bir tərəfdən təhsil almaq, maariflənmək hamı üçün mütləq hesab edildi, digər tərəfdən ən dərin zəka sahibləri, millət üçün ən güclü düşünən beyinlər məhv edildi. Uzun illər bu müxtəlif formada davam etdirilirdi.

Faktlar bir daha göstərir ki, 20-30-cu illərdə rəsmi milli və dini siyasətdə, maarif sistemində, istehsalatda hökm sürən inzibati amirlik metodunun xüsusiyyətləri Azərbaycanda reallaşan dövlət siyayasətindən yan keçmədi. Bu totalitar rejimin həyata keçirdiyi siyasətin görünməyən tərəfləri idi.

Azərbaycan xalqı isə bu günədək məhz milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib.

**Qaynaqlar**

1. AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş 116, 6v
2. AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş 120
3. AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş 151, 5v
4. AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş 158; 2v
5. AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş 167, 8v
6. AMEA S. Mümtaz adına Əlyazmalar İnstitutu f:18, siy.1, iş 186, 9v
7. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası (2005). 2 cilddə, II c., Bakı: Lider
8. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 322, 122 v.
9. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 1556, 9 v.
10. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 526, 255 v.
11. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 589, 70 v.

12. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 773, 74 v.
13. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 788, 1v.
14. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 944, 14 v.
15. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1039, 1v.
16. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1101, 37 v.
17. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1422, 3 v.
18. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2353, 1 v.
19. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2720, 10 v.
20. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2727, 1 v.
21. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2801, 4 v.
22. Azərbaycan Respublikası MDA: f.1 siy. 74, iş 287, q.41, 219 v.
23. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2907, 2 v.
24. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 3515, 11 v.
25. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 3667, 10 v.
26. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 3969, v.
27. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 5247, 6 v.
28. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 5332, 12 v.
29. Azərbaycan Respublikası MDƏİA: f.366, siy.8, iş 3, 30 v.
30. Azərbaycan Respublikası MDƏİA: f.442, siy. 4, iş 137, 46 v.
31. BƏDƏLBƏYLİ, Əfrasiyab (1929). Tar üzərinə mühakimə münasibətilə. “Kommunist” qəz., Bakı, 11 yanvar, №9 (2515)
32. BÜNYADOV Ziya (1990). Qadınlarımız, qurbanlarımız. «Ədəbiyyat və incəsənət» qəz.,…Bakı, 28 sentyabr
33. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10

iyun 2016-cı il). Bakı: Elm və təhsil nəşriyyatı

34. ƏLIYEV Bəxtiyar (1988). Şəxsiyyət probleminə yeni baxış / Elmi-praktik konfransın materialları, Bakı.

35. ƏLIYEV, Bəxtiyar-ƏLIYEVA, Kamilə-CABBAROV, Rövşən-MUSTAFAYEV, Mirələm (2007). Şəxsiyyətin özünü gerçəkləşdirməsində özünüdərketmənin rolu // Psixologiya, elmi-praktik jurnal, №1, s. 3-13

36. GƏNCƏLİ, Sabir (1990)Ağ ləkələrin qaranlıq səhifələri // Azərbaycan qadını, №6

37. GƏNCƏLİ, Sabir (1988). Bakı Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyəti // Azərbaycan qadını, , № 11 s.14-16

38. GƏNCƏLİ, Sabir (1991). İşıqlı ömürlər, kövrək talelər, Bakı:Azərnəşr

39. GƏNCƏLİ, Sabir (1988). Belə bir ailə vardı // Azərbaycan qadını, 1988, № 12

40. GƏNCƏLİ, Sabir (1988). Bir ailənin faciəsi // Azərbaycan qadını, 1988, № 8

41. GƏNCƏLİ, Sabir (1989). Böyük bir nəslin faciəsi //Azərbaycan qadını, № 9

42. GƏNCƏLİ, Sabir (1982). Maarifpərvər qadın // Azərbaycan qadını, №6

43. GƏNCƏLİ, Sabir (1990). Mədəniyyət tariximizdən // Azərbaycan qadını, № 11-12

44. GƏNCƏLİ, Sabir (1989). Ülvi arzular, acı tale // Azərbaycan qadını, № 6

45. GƏNCƏLİ, Sabir (1988). Haqsızlıq ərşə də qalxsa // Azərbaycan qadını, , № 9

46. HÜSEYNZADƏ, A.(1989).Ümmugülsümün «Qala xatirələri» // Azərbaycan qadını, № 10

47. XÜRRƏMQIZI Afaq (2016). I Türkoloji Qurultayda qeyri-türk xalqlarının iştirakı və əlifba məsələsi. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016). Bakı: Elm və təhsil nəşriyyatı

48. İclas. Əli Bayramov klubunda. Evlənmək yaşı haqqında. «Kommunist» qəz., Bakı, 1926, 28 sentyabr

49. İSLAMZADƏ C.(1987). Bizim Gülara. « Ədəbiyyat və incəsənət» qəz., Bakı, 3 iyul

50. KAZIMOVA, Kamilə. Şəxsiyyətin sosiallaşmasının bəzi məsələləri // Psixologiya, elmi-

praktik jurnal, 2007, №1, s. 15-22

51. MƏMMƏDZADƏ, Mirzəbala (2007). Köylü hərəkatı. Lenin siyasəti. Bakı
52. SULTANOVA, Hökumə (1974). İlk redaktor // Azərbaycan qadını, №3
53. TAHİRZADƏ Ədalət (2016). Türkoloji Qurultayda Türkİyə qorxusu və "Çk"-Nın "Casus ovu". Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016). Bakı: Elm və təhsil nəşriyyatı
54. Tar konservatoriyadan çıxarıldı. // "İnqilab və mədəniyyət" jurnalı. Bakı: 1929, №2
55. 1926-cı il I Bakı türkoloji qurultayı :stenoqram materialları, biblioqrafiya və foto- sənədlər / rus dilindən tərc.: Kamil Nərimanoğlu, Ə. Ağakişiyev(2006). Bakı: Çinar- Çap
56. АВАКЯН Ар (1926). Даешь 14-ти летних жет ответ тов.Т.Ш. о брачном возрасте. Газ., « Бакинский рабочий», 10 сентября
57. АВАКЯН Ар (1926). К итогам дискуссии по брачному вопросу. Газ., «Бакинский рабочий», 5 ноября
58. АЛИЕВА, Камила (2002). Творчество как фактор развития личности: Автореф: Дис. канд. псих. наук, Баку
59. БОГДАНОВ, Д. (1926).Рынок разврата. Газ., «Бакинский рабочий», 1926, 20 сентября
60. БОГДАНОВ Д.(1926). Два примера о проституции. Газ., «Бакинский Рабочий», 1926, 4 ноября
61. ГУСЕЙНОВА Ирада. История народов Кавказа. Баку: Тахсил, 2006, 684 с.
62. КАГРАМАНЛЫ Е. (2012). Фархад Агазаде и Первый Всесоюзный Тюркологический съезд // Ученые записки Таврического Национального Университета имени Вернадского. серия филология, том 25 (64), №2, с.24-29
63. О. Б. Гражданское и брачное совершеннолетие. Газ., «Бакинский рабочий», 1926, 26 сентября
64. ПЕРЕЛЬМИТР, (1926). К вопросу о брачном возрасте никаких отступлений. Газ., «Бакинский рабочий», 26 сентября

65. СУЛТАНОВА, Айта- АВАКЯН Ар (1926). Спец по брачным вопросам. Газ., «Бакинский рабочий», 3 сентября

66. СУЛТАНОВ, Гамид (1926). Несколько слов по брачному вопросу. Газ., «Бакинский р-абочий», 28 сентября

67. ТАЛЫБЛЫ, Б. (1926). О брачном возрасте. Газ., «Бакинский рабочий», 1926, 26 сен-тября

68. Т. Ш. Вопрос о брачном возрасте. Газ.,«Бакинский рабочий», 1926, 9 сентября, 30 сентября

69. ƏHMƏDOV, Hüseyn (2010) Nəriman Nərimanovun maarifçilik fəaliyyəti və pedaqoji fikirləri. Azərbaycan müəllimi qəzeti,9 Aprel, №13 www.muallim.edu.az/www.old/arxiv

70. RÜSTƏMOVA-TOHİDİ Solmaz, www.azerbaijan-news.az/index.php?mod=3&id=65174

71. Cəlil Məmmədquluzadə Ensiklopediyasıcalilbook.musigi-dunya.az/m/mammedguluzade_calil.html

72. yasamal.cls.az/more/text/54808